Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU



# NAXÇIVAN
# NAKHCHIVAN

Azərbaycan xalqının
ümummilli lideri
# HEYDƏR ƏLİYEVİN
əziz xatirəsinə

Azərbaycan Milli Elmlər Akademiyası
A.A. Bakıxanov adına Tarix İnstitutu
TARİX
1

In dear memory of the national
leader of Azerbaijani people

# HEYDAR ALIYEV

«TƏHSİL»
NƏŞRİYYATI

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU
2





# Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi *Üzeyir Hacıbəyovun,*
Sözləri *Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Şəndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı vətən!
Azərbaycan! Azərbaycan!



*Azərbaycanın qədim və zəngin tarixinə, mədəniyyətinə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir.*

*Naxçıvanlıların öz fədakatlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesləri gedir .*

*HEYDƏR ƏLİYEV*

*The land of Nakhchivan which has an ancient and rich history and culture and many centuries of statehood traditions has had a complicated and difficult way of development. In the Middle Ages Nakhchivan was one of the famous scientific, cultural and trade craftsmanship centers in the East and has given to the world civilization valuable contributions.*

*For the heroism and hard work ethic of the Nakhchivanis, Nakhchivan lives, develops and progresses.*

*HEYDAR ALIYEV*

# AZƏRBAYCAN


AZƏRBAYCAN RESPUBLİKA
Siyasi-inzibati xəritə
Miqyas - 1:3 000 000
Naxçıvan Muxtar Respublikası
Dövlət Torpaq və Xəritəçəkmə Komitə
2005
RUSİYA FEDERASİYASI
DAĞISTAN
GÜRCÜSTAN
TBİLİSİ
ERMƏNİSTAN
İRAN
Balakən
Zaqatala
Qax
ŞƏKİ
Oğuz
Qəbələ
Qusar
Quba
Xaçmaz
Dəvəçi
Siyəzən
Xızı
SUMQAYIT
Xırdalan
BAKI
Qazax
Ağstafa
Tovuz
Şəmkir
Naftalan
GƏNCƏ
Xanlar
Goranboy
Gədəbəy
Daşkəsən
MİNGƏÇEVİR
YEVLAX
İsmayıllı
Göyçay
Şamaxı
Ağsu
Ağdaş
Ucar
Mərəzə
Tərtər
Bərdə
Zərdab
Kürdəmir
Kəlbəcər
Ağcabədi
Sabirabad
Hacıqabul
İmişli
Saatlı
ƏLİ BAYRAMLI
Xocalı
Ağdam
XANKƏNDİ
Xocavənd
Beyləqan
Laçın
Şuşa
Füzuli
Cəbrayıl
Qubadlı
Zəngilan
Biləsuvar
Salyan
Neftçala
Cəlilabad
Masallı
Yardımlı
Lerik
Lənkəran
Astara
Şahbuz
Şərur
Culfa
Babək
NAXÇIVAN
Ordubad
Heydərabad

# RESPUBLİKASI





**YAQUB MAHMUDOV, KƏRİM ŞÜKÜROV**

# N A X Ç I V A N :

## T A R İ X İ V Ə A B İ D Ə L Ə R İ

**TƏHSİL» NƏŞRİYYATI**
**BAKI – 2007**

YAGUB MAHMUDOV, KARIM SHUKUROV

# NAKHCHIVAN:

## HISTORY AND MONUMENTS

«TAHSIL» PUBLISHING HOUSE
BAKU – 2007

***Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı ilə çap olunur***

Baş məsləhətçi: **VASİF TALIBOV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri*

Elmi redaktor: **İsmayıl Hacıyev**
*AMEA-nın həqiqi üzvü*

Naşir: **Bəhruz Axundov**

Buraxılışa məsul: **Tofiq Babayev**
*tarix elmləri namizədi*

İngilis dilinə tərcümə edən: **Bəylər Hacıyev**

**M 31 Yaqub Mikayıl oğlu Mahmudov, Kərim Kərəm oğlu Şükürov Naxçıvan: tarixi və abidələri.** Bakı, «Təhsil», 2007, 216 səhifə.

Kitabda Azərbaycanın ayrılmaz tərkib hissəsi və dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanın tarixi işıqlandırılır. Əsərdə Naxçıvanın keçdiyi tarixi inkişaf yolu ayrı-ayrı dövrlər üzrə nəzərdən keçirilir. Kitaba əlavə olunmuş illüstrasiya materialı oxucularda həmin dövrlər haqqında daha dolğun təsəvvür yaradılmasına, Naxçıvan tarixinin daha dərindən dərk edilməsinə imkan yaradır. «Naxçıvan: tarixi və abidələri» kitabında verilən konkret və zəngin faktik material bu qədim Azərbaycan torpağına ərazi iddiaları ilə çıxış edən erməni saxtakarlarının heç bir elmi əsasa malik olmadıqlarını sübut edir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

***Published by the decision of the Presidium of the Academic Council of the A.A.Bakikhanov Institute of History of the Azerbaijan National Academy of Sciences and the Nakhchivan Branch of the Azerbaijan National Academy of Sciences***

Senior Advisor: **VASIF TALIBOV**
*Chairman of the Nakhchivan Autonomous Republic Supreme Assembly*

Research editor: **Ismayil Hajiyev**
*Full member of the Azerbaijan National Academy of Sciences*

Publisher: **Bahruz Akhundov**

Managing editor: **Tofig Babayev**
*Candidate of Historical Sciences*

Translated into English by: **Baylar Hajiyev**

**M 31 Yagub Mikayil oghlu Mahmudov, Karim Karam oghlu Shukurov**
**Nakhchivan: History and Monuments.** Baku, «Tahsil», 2007. 216 page.

The book reviews the history of Nakhchivan, an integral part of Azerbaijan and one of the ancient cultural centers of the world. The book studies the historical development of Nakhchivan in the light of separate periods. The photographs and illustrations in the appendix enable readers to understand those periods and the history of Nakhchivan better and more thoroughly. The book "Nakhchivan: history and monuments", based on true facts and rich practical materials, proves that all the claims of the Armenian falsifiers, who are making territorial claims on Nakhchivan arc groundless.

The book is intended for the general public.

© «TƏHSİL», 2007

# NAXÇIVAN

## NAXÇIVAN ƏN QƏDİM ZAMANLARDAN MUXTARİYYƏT DÖVRÜNƏDƏK

Qədim Azərbaycan torpağı olan Naxçıvan Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biridir. Azərbaycan xalqı bu diyarda qədim və zəngin mədəniyyət yaratmışdır. Naxçıvan, eyni zamanda dünyanın da ən qədim mədəniyyət mərkəzlərindəndir. Azərbaycanın digər bölgələri kimi Qədim Şərq sivilizasiyaları ilə six bağlı olan Naxçıvan tarixi inkişafın gedişində dərin iz qoymuşdur. Bu diyarda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır.

**«Naxçıvan»** sözünün mənşəyini alimlər müxtəlif cür izah edirlər. Xalq etimologiyasına və mötəbər tarixi qaynaqlara görə, «Naxçıvan» **«Nəqş-i cahan»,** yəni **«dünyanın naxışı», «dünyanın bəzəyi»** sözlərindən yaranmışdır[1]. Xalq arasında geniş yayılmış digər bir rəvayətə görə, «Naxçıvan» toponimi **Nuh** peyğəmbərlə, daha doğrusu, **«dünya tufanı»** ilə bağlı olub, **«Nuhçuvan» - «Nuh tərəfdarlarının məskəni», «Nuhun diyarı»** deməkdir. Həqiqətən də, Naxçıvan yaxınlığında dəniz səviyyəsindən 3725 m yüksəklikdə yerləşən **«Gəmiqaya»** adlı qədim yaşayış məskəni və həmin yaşayış məskənində **«Nəbi yurdu» («Peyğəmbər yurdu»)** adlanan çox qədim bir qəbiristanlıq aşkar olunmuşdur. Nuh peyğəmbərin qəbri isə Naxçıvan şəhərinin özündədir*. Ümumiyyətlə Azərbaycan xalqı, o cümlələdən Naxçıvan əhalisi arasında qədim abidələr və əntiq mallarla bağlı olaraq **«Nuh Nəbidən qalma» («Nuh peyğəmbərdən qalma»)** ifadəsi çox işlədilir.

«Naxçıvan» sözü «Nakçuana / Naxçuan» - «möcüzəli və ya yaxşı sular diyarı», yaxud «müalicəvi mineral sular ölkəsi» kimi də izah olunur[2].

***

Azərbaycan arxeoloqlarının apardıqları qazıntılar nəticəsində sübut olunmuşdur ki, Naxçıvanda hələ **Paleolit dövründə** (qədim daş dövrü) ən qədim insanların ilk yaşayış məskənləri olmuşdur. Bu diyarın müxtəlif yerlərindən, xüsusilə *Qazma mağarasından* (Şərur rayonu) həmin dövrə aid zəngin arxeoloji tapıntılar aşkar olunmuşdur. Bu materiallar Azərbaycanda və dünyada paleolit dövrünün elmi-tədqiqat coğrafiyasını daha da zənginləşdirmişdir.

**Neolit** (yeni daş dövrü) inqilabı—istehsal təsərrüfatının meydana gəlməsi (e.ə. VIII-VI minilliklər) Naxçıvan diyarının da tarixində mühüm hadisə olmuşdur.

**Eneolit** (mis-daş) dövründə istehsal təsərrüfatı daha da tərəqqi etdi. Bu dövrdə bütövlükdə Azərbaycanın, o cümlədən də Naxçıvanın, dünya sivilizasiyasının mərkəzlərindən olan Mesopotamiya ilə əlaqələri daha da genişləndi. Bu arxeoloji dövrlərin tarixini *I Kültəpə* (Babək rayonu), *Ovçulartəpə* (Şərur rayonu), *Damlama* (Kəngərli rayonu) və b. abidələr olduqca parlaq əks etdirir. I Kültəpədən aşkar edilmiş mis-gümüş qatışıqlı əmək alətləri (e.ə. VI minilliyin ortaları) Naxçıvanda mis əldə edilməsinin ilk dövrünü aydınlaşdırır.

Naxçıvan **Tunc dövrü** (e.ə. IV—II minilliklər) abidələri ilə də olduqca zəngindir. Bu diyarda həmin dövrün bütün mərhələlərinə aid cox qiymətli arxeoloji abidələr vardır. Dünya miqyaslı I *Kültəpə, II Kü-təpə* (Babək rayonu), *Ovçulartəpə, Maxta* (Şərur rayonu) və b. abidələrdən tapılmış arxeoloji materiallar bunu aydın sübut edir. Tunc dövründə Naxçıvanda təsərrüfat həyatı daha da inkişaf etmiş, etnik proseslər intensivləşmiş, iqtisadi əlaqələr və incəsənət tərəqqi etmişdir.

*Naxçıvan MR Ali Məclisi 2006-cı il iyunun 28-do «Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında» sərəncam qəbul etmişdir.





*Gəmiqaya qayaüstü təsvirləri* (Ordubad rayonu, e.ə. III—I minillik) Qobustan ənənələrinin davamı kimi çox qiymətlidir.*

Naxçıvanda bütövlükdə Azərbaycan üçün səciyyəvi olan Kür-Araz mədəniyyəti (ilk Tunc dövrü) ilə yanaşı, özünəməxsus arxeoloji mədəniyyətlər olan *boyalı qablar mədəniyyəti* (e.ə. III—I minilliklər) və *Naxçıvan mədəniyyəti* (son Tunc - ilk Dəmir dövrü) də təşəkkül etmişdir[3].

Naxçıvan ərazisinin ən qədim sakinləri olan Azərbaycan tayfaları, burada meydana gəlmiş tayfa birlikləri Azərbaycanın etnik-siyasi tarixində mühüm rol oynamışlar.

Naxçıvan diyarı dünyanın ən qədim şəhər məskənlərindən biridir. Bu diyarın baş şəhəri olan Naxçıvan isə Şərqdə və bütün dünyada ən qədim şəhərlərdən biri hesab olunur[4]. 3500 ildən artıq yaşı olan Naxçıvan şəhəri sonralar Azərbaycanın iqtisadi, siyasi və mədəni mərkəzlərindən birinə çevrilmişdi. Naxçıvan, eyni zamanda Azərbaycan dövlətçiliyinin təşəkkülü və inkişafında da mühüm rol oynamışdır.




Naxçıvan e.ə. I minilliyin ilk yüzilliklərində Azərbaycan **Manna dövlətinin** [e.ə. IX - e.ə. VII yüzilliyin sonları] tərkibində olmuşdur Manna dövləti qonşu Assuriya və Urartu dövlətlərinə qarşı mübarizədə öz müstəqilliyini uğurla qoruyub saxlamışdır. Urartuya qarşı mübarizə e.ə. 820-810-cu illərə aid edilən *İlandağ mixi yazısında* (Culfa rayonu) əks olunmuşdur. Bu abidə haqqında məlumat ilk dəfə 1989-cu ildə İtaliya jurnalında dərc olunmuşdur[5].

Mannanın süqutundan sonra Naxçıvan əvvəlcə **Midiya dövlətinin** [e.o. VII yüzilliyin sonları - e.ə. 550-ci il], sonra isə **Əhəməni imperiyasının** [e.ə. 550 - e.ə. 330-cu illər] tərkibinə daxil olmuşdu.

**Makedoniyah İsgəndərin** [e.ə. 336 - e.ə. 323] ölümündən sonra Azərbaycan öz müstəqilliyini bərpa etdi. Ölkənin cənubunda **Atropatena,** şimalında isə **Albaniya** dövlətləri yarandı. Naxçıvan torpaqları Atropatena dövlətinin tərkibinə daxil idi.

Antik dövrdə və eramızın ilk yüzilliklərində Naxçıvanda ictimai-iqtisadi və mədəni tərəqqi daha da sürətləndi. Bu Azərbaycan diyarının beynəlxalq əlaqələri daha da genişləndi. *Ağbulaq* (Şahbuz rayonu), *Qahab* (Babək rayonu), *Govurqala, Albantəpə, Axura kültəpəsi, Püsyan nekropolu* (Şərur rayonu) və b. abidələrdən həmin dövrə aid çox qiymətli arxeoloji materiallar tapılmışdır. Bu dövrdə Naxçıvan barədə Roma və yunan müəlliflərinin əsərlərinə də məlumatlar daxil edildi. *İosif Flafi* (e.ə. I əsr) və *Klavdi Ptolemey* (b.e. II osr) öz əsərlərində Naxçıvanın adını çəkirlər.

Eramızın III yüzilliyində İran Sasani dövləti [224-651-ci illər] güclənməyə başladı. Regionda üstünlüyü ələ keçirmək üçün Sasani, Roma, sonra isə Bizans imperiyaları arasında dağıdıcı müharibələr baş verdi. Bu, Naxçıvan diyarına da ağır zərbələr vurdu. Lakin çox keçmədən hərbi-strateji mövqeyi və ticarət yollarının üstündə yerləşməsi Naxçıvanın inkişafına yenidən güclü təkan verdi. Bəzi məlumatlara görə ilk orta əsrlərdə Naxçıvan şəhərində 30 minə qədər ev və **150 min** əhali vardı. Sasani canişinlərinin (mərzbanlarının) iqamətgahı müəyyən dövrlərdə burada yer-

*Naxçıvan MR Ali Məclisi «Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq olunması barədə» 26 aprel 2001-ci il tarixli sərəncam qəbul etmişdir. Buna uyğun olaraq *Gəmiqaya elmi forumları* keçirilir.

ləşirdi. Azərbaycanın qədim zərbxanalarından biri olan *Gilan zərbxanası* (Ordubad rayonu) Naxçıvanda yerləşirdi. Burada «naxç» işarəsilə Sasani sikkələri zərb olunmuşdu[6]. Sasanilərin hakimiyyətinin zəifləməsi şəraitində Azərbaycan dövlətçiliyinin bərpası Naxçıvanın inkişafına müsbət təsir göstərdi. Bu dövrə aid sikkələr (V-VI əsrlər), Albaniya hökmdarı *Cavanşirin* [638-680/81] *statuetkası* (SPb, Ermitaj), *qrifon* (Culfa rayonu), *Biləv qalası, Dəmirlər, Xarabagilan* (Ordubad rayonu), *Dəlmə* (Şahbuz rayonu) və b. yaşayış məskənlərindən əldə edilmiş zəngin arxeoloji materiallar tərəqqidən xəbər verir.

**Ərəb** işğalları dövründə [VII-VIII əsrlər] başqa Azərbaycan torpaqları kimi Naxçıvan da **Ərəb Xilafətinin** tərkibinə daxil edildi[7]. Ərəb sərkərdəsi *Həbib ibn Məsləmə* Naxçıvan şəhərini ələ keçirərkən şəhər əhalisi qarşısında götürdüyü öhdəliklər barədə xüsusi müqavilə imzaladı[8].

İslam dininin yayılması, geniş ərazili Ərəb Xilafətinə daxil olan ölkələrlə qarşılıqlı əlaqələrin genişlənməsi Azərbaycanın, o cümlədən də Naxçıvanın inkişafına müsbət təsir göstərdi. Bununla belə, yadelli əsarətini qəbul etməyən Azərbaycan xalqı ərəblərin işğalçılıq siyasətinə qarşı azadlıq mübarizəsinə qalxdı. *Babəkin* başçılıq etdiyi azadlıq müharibəsinin [816-837] əsas mərkəzlərindən biri də Naxçıvan oldu[9]. Ərəb mənbələrində bütövlükdə Azərbaycan haqqında, o cümlədən də Naxçıvan barədə məlumatlar daha da artdı. *Əl-Bəlazuri, İbn Xordadbeh, əl-Müqəddəsi, əl-İstəxri, əl-Biruni, Yaqut Həməvi* və b. görkəmli tarixçilər, coğrafiyaşünaslar Naxçıvandan geniş bəhs edirlər.

Naxçıvanın bütün islam dünyasında məşhur olmasının ən parlaq faktlarından biri də budur ki, buradakı *Tanrıçılığa* məxsus olan qədim *Əshabi-Kəhf («Mağara sahibləri»)* abidəsi Qurani-Kərimin 18-ci surəsi olan əl-Kəhf («Mağara») surəsinin 9-26-cı ayələrində əks olunmuşdur. Bu ayələrdə *Allahdan başqasına inananlardan ayrılıb* mağaraya sığınan gənclərdən, onların 300 ildən çox yuxuya qalmasından və oyandıqdan sonra başlarına gələnlərdən söz açılır[10]. Əshabi-Kəhf Naxçıvanın şöhrətini daha da artırdı, bu qədim inanc yeri isə müsəlmanların məşhur ziyarət yerinə çevrildi". Əlincəçay xanəgahı (Culfa rayonu) da bu dövrə aid olub, VIII əsrdən mövcuddur.




Babəkin başçılıq etdiyi azadlıq müharibəsi Ərəb Xilafətinin əsaslarını zəiflətdi. Azərbaycan ərazi-sində **Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər** sülalələrinin və Şəki hakimlərinin idarə etdikləri müstəqil dövlətlər meydana gəldi[12]. Naxçıvan əvvəlcə Sacilər, sonra isə Salarilər sülalələrinin idarə etdikləri Azərbaycan dövlətlərinin tərkibində olmuşdu. Bəzi məlumatlara görə təxminən X yüzilin 80-ci illərindən XI yüzilin ortalarınadək Naxçıvan ərazisində **Naxçıvan şahlığı** adlanan bir əmirlik yaranmış, buranı **Əbu-düləfilər** sülaləsi idarə etmişdi. Naxçıvan tarixinin bu dövrü barədə *Aza körpüsü* (Ordubad rayonu), *Əlincə qalası* (Culfa rayonu), *Alovtəpə* (Kəngərli rayonu), *Dəvəli* (Şərur rayonu) tarixi abidələri, həmçinin başqa yaşayış məskənlərindən əldə edilmiş tapıntılar çox qiymətli məlumatlar verir.



*Əshabi-Kəhf («Mağara sahibləri») ziyarətgahı*
*As-habi-Kahf («Cave holders»), a place for pilgrimage*



*Əlincəçay xanəgahı (Nəimi türbəsi)*
*Alinjeriver cloister for dervishes (Naimi's tomb)*

Azərbaycan xalqının ən möhtəşəm qəhrəmanlıq eposlarından biri olan **«Kitabi-Dədə Qorqud»** dastanlarının yayıldığı tarixi-coğrafi ərazidə Naxçıvan özünəməxsus yer tutur[13]. Dastanın bir sıra qolları, bu qəhrəmanlıq eposunda cərəyan edən bir çox hadisələr bilavasitə Naxçıvanla bağlıdır. «Kitabi-Dədə Qorqud» dastanlarında adı çəkilən çoxsaylı toponimlərin Naxçıvanda və Naxçıvanın əhatəsindəki Qərbi Azərbaycan torpaqlarında olması bu diyarın ən qədim oğuz-türk torpaqlarından biri olduğunu göstərir. «Kitabi-Dədə Qorqud» dastanlarında Naxçıvanda və bütövlükdə Qərbi Azərbaycan torpaqlarında ermənilərlə bağlı heç bir toponimə rast gəlinmir. Bu faktın özü də ermənilərin bu yerlərə sonralar köçüb gəldiklərini sübut edir. «Kitabi-Dədə Qorqud» dastanlarının misilsiz əhəmiyyətini nəzərə alan ümummilli lider *Heydər Əliyev* 1997-ci il aprelin 20-də bu qəhrəmanlıq eposunun 1300 illiyinin qeyd edilməsi haqqında fərman vermis, yubiley beynəlxalq miqyasda qeyd olunmuşdu. Naxçıvanda Oğuzun başbiləni Dədə Qorquda ehtiram əlaməti olaraq *«Dədə Qorqud» meydanı* salınmış, onun şərəfinə abidə ucaldılmışdır.

***Sultan Toğrulun*** [1038-1063] **Böyük Səlcuq İmperiyasını** yaratması ilə dünya tarixində böyük dəyişikliklər baş verdi. Azərbaycan torpaqları, o cümlədən Naxçıvan ərazisi Böyük Səlcuq türk imperiyasının tərkibinə daxil edildi. Qədim türk yurdu olan Naxçıvan şəhəri bu dövrdə daha da tərəqqi etdi.




Böyük Səlcuq İmperiyasının süqutundan sonra Azərbaycan ərazisində *Şəmsəddin Eldəniz* [1136-1175] tərəfindən əsası qoyulan *Azərbaycan Atabəylər - Eldənizlər dövləti* [1136-1225] yarandı[14]. Bu zaman Naxçıvan Atabəylər dövlətinin paytaxtına çevrildi. Atabəylər dövlətinin xəzinəsi Naxçıvan şəhəri yaxınlığındakı Əlincə qalasında saxlanılırdı. Azərbaycan hökmdarı ***Məhəmməd Cahan Pəhləvanın*** dövründə [1175-1186] Naxçıvan hakimi ***Qızıl Arslan***, onun ölümündən sonra isə arvadı ***Zahidə xatun*** idi. Atabəylər - Eldənizlər dövründə Naxçıvan Azərbay-canın iqtisadi, siyasi və mədəni mərkəzlərindən biri kimi dünya miqyasında şöhrət qazanmışdı. Naxçıvan haqqında məlumat verən qiymətli mənbələrdən birində yazılır: **«Naxçıvan - Azərbaycanda şəhərdir, böyükdür və əhalisi çoxdur, hündür yerdə yerləşir, çox möhkəmləndirilmişdir. Çoxlu saraylar, şəhərkənarı qəsrlər - köşklər və təmtəraqlı eyvanlar tikilib; şəhərin yanında daşdan qala tikiblər, qalada mədrəsə, nıəscid inşa ediblər; qalada şirinsulu bulaq var. Deyirlər ki, yer üzündə bundan çox əhalisi olan şəhər yoxdur; bütün tikililər kəcdən və bişmiş kərpicdəndir. Köşklərin çoxu qalalar kimi üç və dörd mərtəbəlidir. Şəhərətrafi** (savad) **çox**

**gözəldir, axar suyu, bağları və yaşıllığı çoxdur. Araz çayı şəhərin içərisindən axır. Əlahəzrət Eldənizin mübarək zamanında şəhər özünün ən yüksək əzəmətinə çatdı. Orada hökmdarın iqamətgahı (dar əl-mülk) və hökumət binaları** (dövlətxanalar) **tikildi»[15].**

Özünəməxsus xüsusiyyətləri ilə fərqlənən Naxçıvan memarlığı Atabəylər dövründə ayrıca məktəbə çevrildi. Bütün Şərqdə məşhur olan Naxçıvan memarlıq məktəbinin banisi böyük sənətkar və mütəfəkkir alim ***Əcəmi Əbubəkr oğlu Naxçıvani*** idi.

**ƏCƏMİ Əbubəkr oğlu Naxçıvani** (XII əsrin 20-ci illəri - XII əsrin sonu) -Böyük Azərbaycan memarı. Naxçıvan memarlıq məktəbinin banisi. Orta əsr Azərbaycan memarlığına yeni istiqamət vermiş, Yaxın Şərq memarlığına güclü təsir göstərmişdir. Əcəminin adı XII əsr Azərbaycan intibahının görkəmli sıınaları arasında şərəfli yer tutur. Nizami Gəncəvi və Xaqani Şirvani kimi onun adı da Azərbaycan mədəniyyəti tarixinə qızıl hərflərlə həkk olunmuşdur. Şərqin böyük dühaları ona «Şeyxül-mühəndis» (mühəndislərin başçısı) fəxri adı vermişdilər.

Əcəminin yaradıcılığı Azərbaycan Eldənizlər (Atabəylər) dövlətinin paytaxtı Naxçıvanla bağlı olmuşdur. Mühüm beynəlxalq ticarət yolları qovşağında yerləşən, Eldənizlər dövründə Azərbaycanın siyasi, iqtisadi və mədəniyyət mərkəzi olan Naxçıvanda geniş abadlıq və tikinti işləri aparılırdı. Əcəminin yaratdığı ilk məlum abidə Yusif Küseyir oğlu türbəsidir. Naxçıvan şəhərinin mərkəzində yerləşən və el arasında «Atababa günbəzi» adı ilə tanınan bu türbə 1162-ci ildə tikilmişdir. Böyük sənətkarın digər əsəri məşhur Möminə xatun türbəsidir. Təkcə Azərbaycanda deyil, bütün islam aləmində ən hündür və incə kompozisiyalı türbələrdən sayılan Möminə xatun türbəsini Əcəmi 1186-cı ildə Naxçıvanın qərb hissəsində ucaltmışdır. El yaddaşında «Atabəy günbəzi» adı ilə qalan bu türbə Atabəy Şəmsəddin Eldənizin arvadı, Məhəmməd Cahan Pəhləvanın anası Möminə xatunun şərəfinə tikilmişdir. Türbə böyük bir memarlıq kompleksidir. Onguşəli Möminə xatun türbəsi monumental abidədir, misilsiz sənət nümunəsidir.

Əcəminin yaratdığı tikililərdən biri də qoşa minarədən və bunları birləşdirən baştağdan-portaldan ibarətdir. Bu abidə, Möminə xatun türbəsi də daxil olmaqla, böyük bir memarlıq kompleksinin giriş hissəsidir. Bu kompleksə daxil olan və XlX əsrə kimi dağınıq halda qalmış Nax-çıvan Cümə məscidi, mənbələrdə adı çəkilən «Darülmülk» - Eldənizlər sarayı və «Dövlətxana» - hökumət binası da Əcəmi sənətinin nümunələridir. Tədqiqatçılar Əcəminin bu abidələrdən başqa, Naxçıvanda daha bir çox binalar tikdiyini qeyd edirlər.

Əcəmi yaradıcılığı Azərbaycan və Yaxın Şərq ölkələri memarlığına böyük təsir göstərmişdir. Marağadakı Göy günbəz (1196-cı il), Naxçıvan yaxınlığındakı Gülüstan türbəsi (XIII əsr), Qarabağlar türbəsi (XII-XIV əsrlər), Bərdə və Səlmas türbələri (XIV əsr), türk memarı Sinanın (XVI əsr) İstanbulda tikdiyi türbələrdə Əcəmi ənənələri yaşayır. 1926-cı ildə Gəncədə Nizaminin məzarı üstündə abidə qoyularkən Əcəmi irsindən istifadə edilmiş, onun üslubunda tikil-mişdir. Bakıda ucaldılmış Nizami heykəlinin kürsü hissəsində, Şuşadakı Vaqif türbəsində, Naxçıvan şəhərindəki Hüseyn Cavid məqbərəsində Əcəminin memarlıq irsinin təsiri aydın hiss olunur. Məşhur Avstraliya sənətşünası Ernest Dits qeyd edirdi ki, Sinanın İstanbulda tikdiyi türbələr Naxçıvan türbələrinin təsiri altında yaranmışdır. E.Dits yazırdı ki, Sinan ordu mühəndisi kimi 1535—1536-cı illər səfəri zamanı Naxçıvana gəlib, Əcəminin memarlıq məktəbi ilə tanış olmuşdur.

Əcəmi yaradıcılığı XII əsr Azərbaycan intibahının parlaq təzahürlərindəndir. Abidələrindəki zəriflik, memarlıq bölgülərinin quruluşu, ornament bəzəklərinin oynaqlığı orta əsr anlayışı çərçivəsinə sığmayan sənətkarlıq təfəkkürünün məhsuludur. Onun ornament kompozisiyaları bədiiliklə riyazi fikrin vəhdətinə əsaslanır.

1976-cı ildə böyük sənətkarın anadan olmasının 850 illiyi geniş qeyd olunmuşdur[16].




*Əcəmi Əbubəkr oğlu Naxçıvani*
*Ajami Abubakr oghlu Nakhchivani*

Monqollann yürüşü [1221] nəticəsində zəifləyən Atabəylər-Eldənizlər dövlətini *Xarəzmşah Cəlaləddin* aradan qaldırdı. Naxçıvan Xarəzmşahın əlinə keçdi. Bu 1231-ci ilədək davam etdi. Monqolların ikinci yüriişü [1231-1239-cu illər] ilə Azərbaycanda monqol ağalığı bərqərar oldu.

1256-cı ildə beşinci monqol ulusu **Hülakülər (və ya EIxanilər) dövləti** yarandıqda Azərbaycan torpaqları bu dövlətin tərkibinə daxil edildi[17]. Naxçıvan o zaman Azərbaycanın cənub torpaqlarının inzibati-ərazi baxımından bölündüyü doqquz tüməndən biri idi. Azərbaycanın 27 şəhərindən beşi - Naxçıvan, Əlincə, Ordubad, Azad və Maku Naxçıvan tüməninə daxil idi. Bu dövrdə Azərbaycanda ağalıq üstündə **Qızıl Ordu** (Qızıl Orda), **Çobanilər, Cəlairilər** mübarizə aparırdılar. ***Əmir Teymurun*** [1370-1405] güclənməsilə vəziyyət daha da mürəkkəbləşdi. Əmir Teymur 1387-ci ildə Naxçıvan torpaqlarını tutdu. Əlincə qalası mühasirəyə alındı. Əlincə qalasının müdafiəçiləri Teymur qoşunlarına qarşı 14 ilə qədər qəhrəmancasına mübarizə apardılar və qalanı təslim etmədilər. Teymurilərə qarşı mübarizədə hürufilər mühüm rol oynayırdı. Hürufiliyin banisi, böyük Azərbaycan mütəfəkkiri ***Fəzlüllah Nəimi*** 1394-cü ildə Teymurun oğlu ***Miranşah*** tərəfindən Naxçıvanda öldürüldü (Nəiminin məzarı hazırda xalqın müqəddəs ziyarət yerinə çevrilmişdir). 14 illik qəhrəmanlıq mübarizəsindən sonra Əlincə qalası da daxili çəkişmələr nəticəsində süquta uğradı. Bu hadisədən bir müddət sonra Teymur Təbrizdən Naxçıvana gəlib, Əlincə qalasının başına çıxaraq onu seyr etmiş, qalanın əzəməti onu heyran qoymuşdu[18].




*Naxçıvan XIII—XIV əsrlərdə.* ***Qaynaq:*** *Piriyev V. Naxçıvan tarixindən səhifələr (XIII—XIV əsrlər). Bakı, 2004*
*Nakhchivan in XIII—XIV centuries.* ***Source:*** *Piriyev V. The pages from the history of Nakhchivan (XIII—XIV centuries). Baku, 2004*

XIII-XIV yüzillərdəki tarixi şəraitin mürəkkəbliyinə baxmayaraq, Naxçıvan sosial-iqtisadi və mədəni cəhətdən inkişaf etməkdə idi. Kənd təsərrüfatı, sənətkarlıq və ticarət sahəsində mühüm irəliləyiş nəzərə çarpırdı. Həmin dövrdə Naxçıvan, Ordubad, Culfa şəhərləri Azərbaycanın şəhər həyatında mühüm yer tuturdu. Naxçıvanda görkəmli dövlət, elm və mədəniyyət xadimləri fəaliyyət göstərirdi.

Əslən naxçıvanlı olan görkəmli Azərbaycan alimi ***Nəsirəddin Tusi*** dünyanın elm korifeyləri sırasında layiqli yer tutmuş dahi Azərbaycan alimi idi.

**N Ə S İ R Ə D D İ N  T U S İ  Məhəmməd ibn Məhəmməd ibn Həsən** (17.2.1201, Tus - 25.6.1274, Bağdad) - dahi Azərbaycan alimi. Böyük ensiklopediyaçı mütəfəkkir, filosof, ictimai-siyasi xadim. İlk təhsilini atasından və dayısından almış, sonra Xorasanda humanitar və dəqiq elmlərin müxtəlif sahələrini dərindən öyrənmişdir.

Nəsirəddin Tusi 1259-cu ildə Marağa rəsədxanasını təşkil etmişdir. Bu, onun dünya elmi və mədəniyyəti tarixində ən mühüm xidmətlərindən biridir. O, müxtəlif xalqların 100-dən çox nümayəndəsini buraya toplamış, onların işləməsi üçün lazımi şərait yaratmışdır. Rəsədxana nəzdində fəaliyyət göstərən mədrəsədə o dövrün bütün bilik sahələri, elmi, dini, fəlsəfi və ictimai-siyasi təlimləri öyrənilirdi.



Nəsirəddin Tusi. Rəssam Nəcəfqulu. 1981
Nasiraddin Tusi. Painter Najafgulu. 1981

Mədrəsənin 400 mindən çox kitabı olan zəngin kitabxanası var idi. Nəsirəddin Tusi Bağdadda səfərdə olarkən vəfat etmiş, öz vəsiyyətinə görə onun yaxınlığındakı müqəddəs Kazımeyn şəhərində dəfn edilmişdir.

Nəsirəddin Tusinin Sədrəddin Əli, Əsiləddin Həsən və Fəxrəddin Əhməd adlı üç oğlu da elm yolunu tutmuş, eyni zamanda dövlət işlərində çalışmışlar. Nəsirəddin Tusi nəslindən olanlar sonralar Naxçıvan ərazisində yaşamış, elm, ədəbiyyat və incəsənət sahəsində tanınmışlar. Nəsirəddin Tusi nəslinin Ordubad mahalında yaşaması və buna görə I Şah Abbasın [1587-1629] oranı bütün vergilərdən azad etməsi haqqında fərmanı XVII əsrdə Ordubadda tikilmiş böyük Cümə məscidinin qapısı üstündəki daş kitabədə həkk olunmuşdur.

Nəsirəddin Tusinin ilahiyyat, fəlsəfə, siyasət və etikaya dair əsərlərində onun dünyagörüşü geniş əks olunmuşdur. Nəsirəddin Tusi öz əsərlərində insanın iradə azadlığına mühüm yer verirdi. Nəsirəddin Tusi İbn Sina və Bəhmənyar məktəbinin görkəmli davamçısı olub, onların ideyalarını inkişaf etdirmişdir.

Nəsirəddin Tusinin etik və ictimai-siyasi görüşləri, əsas etibarilə 1235-ci il-də yazılmış «Əxlaqi-Nasiri» əsərində əksini tapmışdır. Bu əsərdə xasiyyətlərin müxtəlif aspektləri, fəzilətli və qəbahətli cəhətləri araşdırılır, insanı kamilləşdirən keyfiyyətlər, xeyir və səadətə aparan məziyyətlər göstərilir. Diqqəti insan və cəmiyyət münasibətlərinə yönəldən Nəsirəddin Tusinin idarəetmə nəzəriyyəsində özünü, ailəni və dövləti idarəetmə məsələləri təhlil edilir, insanların «ədalət, fəzilət və hikmət qanunları əsasında idarə edilməsi» zəruri sayılır. Nəsirəddin Tusi fiqhə (müsəlman hüququ) dair əsərlərində humanist mövqe tutmuş, insanların əmin-amanlığı qayğısına qalmağı ümdə prinsip saymışdır. Nəsirəddin Tusi poeziya nəzəriyyəsinə, musiqiyə dair traktatların və fəlsəfi şeirlərin də müəllifidir. Nəsirəddin Tusinin dünyagörüşü, geniş məzmunlu fəlsəfəsi, mütərəqqi etik və ictimai-siyasi, habelə ilahiyyata dair fikirləri təkcə tarixilik baxımından deyil, bugünün özündə də böyük maraq doğurur, mühüm əhəmiyyət kəsb edir.

Nəsirəddin Tusinin riyaziyyat, astronomiya və fizika sahələrində misilsiz xidmətləri vardır. «Zic-Elxani» əsərində planetlərin geosentrik orbitinin əsas elementləri verilmiş, onların sutkalıq orta hərəkəti öz dövrünə və hətta XVII əsr astronomiya müşahidələrinə nisbətən daha dəqiq təyin edilmişdir. Nəsirəddin Tusinin rəhbərliyi ilə Yerin fırlanma oxunun illik presessiyasının qiyməti (51$^{2}$4) tapılmışdır (müasir qiyməti 51$^{2}$2). «Zic-Elxani» əsərində çoxlu riyazi, astronomik və coğrafi cədvəllər də verilir. Ən mühümləri sinus və tangensin 60-lıq say sistemində üçrəqəmli triqonometriya cədvəlləri və XIII əsrdə məşhur olan 256 şəhərin coğrafi koordinatlar cədvəlidir. X.Kolumbun müəllimi P.Toskanelli bu cədvəldən istifadə etmişdir. Cədvəl Londonda [1652-ci il] və Oksfordda [1711-ci il] ərəb və latın dillərində çap edilmişdir. Marağa rəsədxanasında fəaliyyət göstərən azərbaycanlı mühəndis Kəriməddin Səlmasi alman alimi Martin Böhaymdan (1459-1507) 2 əsr əvvəl [1266-cı ildə] coğrafi qlobusu hazırlamışdır. Nəsirəddin Tusinin «Təhriri-Öqlidis» («Evklidin şərhi») əsəri həndəsənin inkişafına təkan vermiş, Romada ərəb [1594-cü il] və latın [XVII əsr] dillərində nəşr olunmuş, fransız riyaziyyatçısı A.Lecandrın, ingilis riyaziyyatçısı J.Vallisin və italyan alimi J.Sakkerinin yaradıcılığına böyük təsir göstərmişdir. Nəsirəddin Tusi bu əsərdə və «Həndəsənin əsasları»nda Evklidin 5-ci postulatı haqqında öz nəzəriyyəsini vermiş, üçbucağın daxili bucaqlarının cəmi arasında əlaqəni tapmışdır. Arximedin «Kürə və silindr» və «Dairənin kvadratlanması» əsərlərindəki nisbətlər nəzəriyyəsini Nəsirəddin Tusi inkişaf etdirmişdir. Nəsirəddin Tusinin verdiyi ədəd anlayışı müasir təsəvvürə uyğun gəlir və o, bu sahədə Avropa riyaziyyatçılarını 400 il qabaqlamışdı.

O, Menelay teoreminin, müasir triqonometriyanın əsas teorem və düsturlarını vermiş, sferik üçbucağın üç bucağına görə tərəfləri təyin etmiş, diskret və kəsilməz kəmiyyətlər anlayışına dialektik tərif vermişdir. Nəsirəddin Tusi hesaba aid əsərində tam ədəddən ixtiyari dərəcədən kökalma əməlini kökünün nümunəsi kimi izah etmiş (riyaziyyat tarixində ilk dəfə), ədəd üçbucağını əmələ gətirən binomial əmsalları və onlar arasındakı qanunauyğunluqları göstərmiş,Nyuton binomunu sözlə ifadə etmişdir. Nəsirəddin Tusi fizikaya sözün ən geniş mənasında bütün təbiətşünaslıq məsələlərini aid etmişdir. Burada bəsit və mürəkkəb cisimlər, yerdə və göydə əmələ

gələn hadisələrin, məsələn, göy gurultusu, ildırım, şimşək, yağış, qar, zəlzələ və buna oxşar hadisələrin səbəbləri, mürəkkəb maddələr, onların tərkiblərinin xüsusiyyətləri (mineralogiya), bitkilər, onların növləri, nəfs və qüvvələri (botanika), ixtiyari və iradi hərəkət edən cisimlər, onların hərəkət xüsusiyyətləri, nəfs və qüvvələri (zoologiya), insanın düşüncəli nəfsinin xüsusiyyətləri (psixologiya) öyrənilir. Nəsirəddin Tusi təbabət, əkinçilik elmi və s.-ni fizikanın əlavə bölmələri hesab etmişdir. Nəsirəddin Tusinin və Marağa rəsədxanası alimlərinin kəşf və ixtiraları bəşər elmi fikrini zənginləşdirmişdir. Mənbələrdə Nəsirəddin Tusiyə fövqəladə qabiliyyətinə, dərin zəkasına və misilsiz xidmətlərinə görə «on birinci əql» («əl-əql əl-hadi-əşər» - Şərq peripatetizmi on əql növünün mövcudluğunu qəbul edirdi) və «bəşər ustadı» («ustad əl-bəşər») deyilmişdir.



*Naxçıvan sancağının ərazi-inzibati bölgüsü.*
***Qaynaq:** Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997.*
*The territorial-administrative division of the Nakhchivan Sanjag.*
***Source:** «The detailed notebook of the Nakhchivan Sanjag». Baku, 1997.*

1981-ci ildə böyük alimin anadan olmasının 780 illik yubileyi geniş qeyd olunmuş, şərəfinə medal təsis edilmiş, abidələri ucaldılmış, portreti (xalq rəssamı Nəcəfqulu) yaradılmışdır. Azərbaycan Respublikasının bir sıra elm, təhsil və mədəni-maarif müəssisəsinə, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanasına, küçələrə Nəsirəddin Tusinin adı verilmişdir. YUNESKO-nun qərarı ilə anadan olmasının 800 illik yubileyi dünya miqyasında qeyd edilmişdir. Bu münasibətlə Azərbaycan Respublikası Prezidentinin «Nəsirəddin Tusinin anadan olmasının 800 illiyi haqqında» 13 iyun 2000-ci il tarixli Fərmanı ilə yubiley komissiyası yaradılmış və yubileyi keçirilmişdir'[9].

***Səncər ibn Abdulla ən-Naxçıvaninin*** oğlu ***Hinduşah Naxçıvani*** (1245-1328), nəvəsi ***Məhəmməd ibn Hinduşah Naxçıvani*** (1295— 1376), nəticəsi ***Kəmaləddin ibn Məhəmməd Naxçıvani*** Azərbaycanın elm tarixində layiqli yer tuturlar. Hinduşah Naxçıvani görkəmli tarixçi, dilçi, filosof, dərin və hərtərəfli ensiklopedik biliyə malik olan alim və dövlət xadimi idi. Onun oğlu Məhəmməd də atasının yolunu davam etdirmişdir. Məhəmməd ibn Hinduşah Naxçıvaninin dövrümüzədək iki qiymətli əsəri gəlib çatmışdır.

Səncər ibn Abdullanın digər oğlu ***Seyfəddövlə Naxçıvani*** Elxanilər dövründə yüksək dövlət vəzifəsi tutmuş, qardaşı Hinduşahın elmi inkişafında mühüm rol oynamışdı[20].

Görkəmli filiosof ***Nəcməddin Naxçıvani,*** alim, mütəfəkkir ***Həsən Naxçıvani***, həkim, sufi ***Kəmaləddin Naxçıvani***, məşhur vəkil ***Qəvaməddin Naxçıvani*** və b. da Azərbaycanın elm və mədəniyyət tarixində dərin iz qoymuşlar.

XIII-XIV əsrlərdə Naxçıvan memarlıq məktəbi də öz əvvəlki ənənələrini uğurla davam etdirmişdir. Bu sahədə ***Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvaninin,*** **memar** ***Camaləddin Naxçıvaninin*** və başqalarının böyük xidmətləri olmuşdur. Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani *Bərdə türbəsinin* [1322] və *Qarabağlar türbəsinin* [XIV əsrin 30-cu illəri], memar Camaləddin Naxçıvani isə *Xanəgah* türbəsinin müəllifləridir.

Naxçıvanın XIII-XIV əsrlər tarixinə dair ilk mənbələrdə olduqca qiymətli məlumatlar vardır. Bu dövrə dair çox qiymətli arxeoloji qazıntı materialları da aşkar olunmuşdur. *Əlincə* (Culfa rayonu) və *Babi* (Şahbuz rayonu) *zərbxanaları, Naxçıvan Cümə məscidi, Xarabagilan, Vənənd*

*məscidi, Nüsnüs piri, Biləv nekropolu, Dər türbəsi, Düylün piri* (Ordubad rayonu), *Ziyaülmülk körpüsü, Gülüstan türbəsi* (Culfa rayonu), *Köhnəqala* (Şahbuz rayonu), *Dədəli körpüsü* (Şərur rayonu), *Qarabağlar türbəsi* (Kəngərli rayonu), *Ağoğlan türbəsi* (Sədərək rayonu) və b. abidələr bu dövrün zəngin tarixindən xəbər verir.

XV-XVI yüzillərdə Naxçıvan Azərbaycan **Qaraqoyunlu, Ağqoyunlu** və **Səfəvi dövlətlərinin tərkibində** olmuşdur[21]. Naxçıvan Səfəvi dövlətinin mühüm əyalətlərindən biri idi.

Çox mühüm hərbi-strateji mövqeyə malik olan Naxçıvan XVI əsrin əvvəllərindən başlayaraq uzun zaman Səfəvi-Osmanlı müharibələrinin ən qaynar məntəqəsinə çevrilmiş və dəfələrlə əldən-ələ keçmişdir. Səfəvi hökmdarı ***Məhəmməd Xudabəndə dövründə*** [1578-1587] Naxçıvanın idarəsi Azərbaycanın ən cəngavər tayfalarından biri olan kəngərli-ustaclı tayfasının başçılarına həvalə edildi. Hələ bizim eranın əvvəlində peçeneqlərlə birlikdə Naxçıvan ərazisində məskunlaşmış kəngərlilər ustaclı tayfasının tərkibində Səfəvi dövlətinin yaradılmasında fəal iştirak etmişdilər. Kəngərli tayfasının başçıları XIX əsrin əvvəllərində Rusiya işğallarınadək Naxçıvanın irsi hakimləri idilər.

XVI yüzilliyin sonlarından XVIII yüzilin 40-cı illərinədək Azərbaycan, o cümlədən də Naxçıvan, yenidən tarixin ağır sınaqları qarşısında qaldı[22]. Ölkə **Səfəvi, Osmanlı** və **Rusiya** imperiyaları arasında hərbi-siyasi rəqabət meydanına çevrildi. Qanlı toqquşmalar yenidən Naxçıvanm inkişafına ağır zərbə vurdu. Nəhayət, Səfəvi hökmdarı Şah I Abbas Naxçıvan və digər Azərbaycan torpaqlarını geri almağa nail oldu.

Şah I Abbasın dövründə vəzir təyin edilmiş ***Hatəmbəy Ordubadi*** böyük Səfəvi imperiyasının idarə olunmasında mühüm rol oynamışdı. Şah I Abbas 1606-cı ildə Ordubada səfərindən sonra şəhəri soyurqal kimi ona bağışlamış, Hatəmbəy isə burada geniş quruculuq işləri aparmışdı. Şah Abbasın fərmanı ilə (1607) ordubadlılar vergilərdən azad edilmişdilər. Həmin fərmanın kitabəsi indiyədək qalmaqdadır.

Uzunsürən Səfəvi-Osmanlı müharibələri 1639-cu ildə başa çatdı. Naxçıvan XVIII əsrin əvvəllərinədək Səfəvi dövlətinin tərkibində qaldı.

XVIII yüzilliyin əvvəllərində Azərbaycanın bir sıra torpaqları, o cümlədən Naxçıvan Osmanlı imperiyasının hakimiyyətinə keçdi. Osmanlı dövlətinin tərkibində olarkən, 1727-ci ildə «Naxçıvan sancağının müfəssəl dəftəri» adlı siyahıyaalma sənədi tərtib olundu. «Naxçıvan sancağının müfəssəl dəftəri» çox qiymətli tarixi sənəddir.

«Müfəssəl dəftər», eyni zamanda, Naxçıvan tarixini öyrənmək üçün də çox qiymətli mənbədir. Burada Naxçıvanın inzibati-ərazi bölgüsü, vergilərin miqdarı, əhalinin sayı və s. haqqında mötəbər məlumatlar verilir. Həmin məlumatların əhəmiyyətini nəzərə alaraq, «Müfəssəl dəftər» üzrə yekun cədvəli oxuculara təqdim edirik[23].

Naxçıvanın XV əsrdən XVIII yüzilliyin əvvəllərinə qədərki tarixindən bugünkü nəsillərə çoxsaylı *numizmatik materiallar, daş qoç heykəlləri, İmamzadə kompleksi, Zaviyə məscidi* (Naxçıvan şəhəri), *Cümə məscidi, Amaras məscidi, Behrud körpüsü* (Ordubad rayonu), *Ərəzin nekropolu* (Culfa rayonu), *Parçı imamzadəsi* (Şərur rayonu), *Koroğlu qalası* (Sədərək rayonu) və digər çox qiymətli maddi mədəniyyət nümunələri, tarixi abidələr yadigar qalmışdır.

Böyük Azərbaycan sərkərdəsi ***Nadirin*** hakimiyyətə gəlməsindən sonra [1736-1747] osmanlıların hakimiyyəti altında olan Azərbaycan torpaqları geri qaytarıldı və **Əfşar imperiyasının** tərkibinə daxil edildi. Çox mühüm strateji əhəmiyyəti olan Naxçıvanda öz hakimiyyətini möhkəmləndirməyə çalışan Nadir şah Əfşar bu diyarın irsi hakimləri olan cəsur kəngərli tayfasının tanınmış nümayəndələrini ölkədən sürgün etdi. Lakin Nadirin hakimiyyəti bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da uzun sürmədi. Nadir öldürüldükdən [1747] sonra Azərbaycanda kiçik yerli dövlətlər - xanlıqlar yarandı.

*Cədvəl 1*

## NAXÇIVAN SANCAĞININ İLLİK GƏLİRİ

| № | Nahiyə | İllik gəlir (axça ilə) | Yaşayış məntə-qələrinin sayı | Sancağın illik gəlirində xüsusi çəkisi (% ilə) | Vergi verənlərin sayı və sancaq üzrə nisbəti (% ilə) |
|---|---|---|---|---|---|
| 1 | Naxçıvan | 323.229 | 12 | 12,3 | 777 (7,9) |
| 2 | Əlincə | 243.164 | 28 | 9,3 | 1.450 (14,8) |
| 3 | Sair Məvazi | 152.342 | 16 | 5,8 | 151 (1,5) |
| 4 | Dərəşahbuz | 104.398 | 21 | 3,9 | 153 (1,6) |
| 5 | Mülki-Arslan | 89.333 | 8 | 3,4 | 550 (5,6) |
| 6 | Məvaziyi-Xatun | 44.431 | 9 | 1,7 | 42 (0,4) |
| 7 | Qarabağ | 293.430 | 15 | 11,2 | 247 (2,5) |
| 8 | Qışlağat | 261.371 | 11 | 9,9 | 2.436 (24,9) |
| 9 | Dərəşam | 47.865 | 4 | 1,8 | 264 (2,7) |
| 10 | Azadciran | 408.455 | 37 | 15,5 | 2.918 (29,9) |
| 11 | Şorlut | 28.870 | 5 | 1,1 | 133 (1,4) |
| 12 | Dərənürgüt | 18.409 | 5 | 0,7 | 56 (0,6) |
| 13 | Sisyan | 192.916 | 42 | 7,3 | 189 (1,9) |
| 14 | Dərələyəz | 420.846 | 102 | 16,0 | 422 (4,3) |

*Cədvəldən aydın olur ki, Naxçıvan sancağının 9.788 vergi verəni xəzinəyə hər il 2.629059 axça ödəyirdi.*

Nadirin ölümündən sonra Kəngərli tayfasının başçısı ***Heydərqulu xan*** [1747-1764] **Naxçıvan xanlığının** yaradıldığını elan etdi. Lakin qonşu dövlətlərin müdaxiləsi, habelə xanlıqda hakimiyyəti ələ keçirmək üstündə ara verməyən saray çəkişmələri Naxçıvan xanlığının zəifləməsinə səbəb oldu. Yalnız ***Kalbalıxanın*** [1787-1820] hakimiyyəti dövründə xanlıqda müəyyən sabitlik yarandı.

1795-ci ildə *Ağa Məhəmməd şah Qacar* Azərbaycana yürüş etdi. Bu yürüş zamanı o, Naxçıvan xanlığına da hücum etdi. Buna cavab olaraq Kalbalı xan 1796-cı ildə Azərbaycana işğalçı səfər edən rus ordusunun komandanı ***V.Zubovla*** yaxınlaşmağa meyil göstərdi.

***Ağa Məhəmməd şah Qacar*** növbəti -1797-ci il hücumu zamanı Naxçıvan xanını cəzalandırdı. Kalbalı xanın gözləri çıxarıldı, kəngərlilərin bir hissəsi yenidən Naxçıvandan sürgün olundu. ***Abbasqulu xan*** taxta çıxarıldı[24]. 1797-ci ildə Şuşada Qacarın öldürülməsi ilə siyasi vəziyyət dəyişdi. Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalı təhlükəsi daha da artdı.



*Naxçıvan şəhərinin planı. 1827*
*The plan of the city of Nakhchivan. 1827*

Rusiya imperiyası 1803-cü ildə Azərbaycana qarşı müharibəyə başladı. Azərbaycanı ələ keçirməyə çalışan Qacarlar İrani da 1804-cü ildə Rusiyaya qarşı hərbi əməliyyata başladı. Rusiya-İran müharibəsi (1804-1813) **1813-cü il oktyabrın 12-də** Gülüstan müqaviləsilə nəticələndi. Bu müqavilə ilə Azərbaycan torpaqları Rusiya və İran arasında **birinci dəfə bölüşdürüldü[25].** Azərbaycanın şimal torpaqları Rusiya imperiyasının tərkibinə qatıldı. Naxçıvan və İrəvan xanlıqları isə Azərbaycanın cənub xanlıqları ilə birlikdə Qacarlar İranının nüfuz dairəsində qaldı.

Qacarlar Rusiyanın işğal etdiyi Azərbaycan torpaqlarını onun əlindən almağa, Rusiya isə Azərbaycanın işğalını başa çatdırmağa çalışırdı. Bu, 1826-1828-ci illərdə tərəflər arasında yeni müharibəyə səbəb oldu. Rusiya qoşunları 1827-ci il iyunun 26-da Naxçıvana daxil oldu. Oktyabrın 1-də İrəvan qalası tutuldu. Rusiya hərbi qüvvələri Azərbaycanın cənub torpaqlarında işğalçılıq əmə-liyyatlarına başladılar. **1828-ci il fevralın 10-da** Rusiya və Qacarlar dövləti arasında bağlanmış Türkmənçay müqaviləsilə Azərbaycan torpaqları Rusiya ilə İran arasında **ikinci dəfə bölüşdürüldü.** Türkmənçay müqaviləsinə əsasən Naxçıvan və İrəvan xanlıqları da Rusiyaya ilhaq olundu[26].Naxçıvan xanlığı 1747-1797-ci illərdə inzibati-ərazi baxımından ayrı-ayrı mahallara bölünmüşdü. 1797-1828-ci illərdə isə xanlıq Naxçıvan və Ordubad dairələrindən ibarət idi. Naxçıvan dairəsinə Əlincə, Xok, Dərələyəz mahalları, Ordubad dairəsinə isə Ordubad, Əylis, Dəstə, Çənnəb, Biləv mahalları daxil idi. Xanlığın ərazisində iki şəhər - Naxçıvan və Ordubad şəhərləri vardı.

Naxçıvan xanlığının iqtisadi həyatında ənənəvi məşğuliyyət sahələri - kənd təsərrüfatı və sənətkarlıq üstün yer tuturdu. Xəzinə (dövlətə məxsus), xalisə (xan ailəsinə məxsus), mülk, vəqf və camaat torpağı (kənd icmasına məxsus) əsas torpaq mülkiyyəti formaları idi.

Naxçıvanın xanlıq dövrü tarixindən bir sıra *numizmatik materiallarla* yanaşı, *Cümə məscidi, Xan evi, Ehsan xanın sarayı, İsmayıl-xan hamamı* (Naxçıvan şəhəri), *Sərşəhər, Dilbər* və Dırnıs *məscidləri, Darkənd körpüsü* (Ordubad rayonu), *Nehrəm imamzadəsi* (Babək rayonu), *Sədərək məscidi* və b. tarixi abidələr yadigar qalmışdır.

**Rusiya işğalından 1917-ci ilin Oktyabr çevrilişinədək** olan dövr Naxçıvan tarixində ən ağır dövrdür. Bu dövrdə Rusiya, bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da dözülməz müstəmləkə rejimi qurmağa nail oldu. Naxçıvanın tarixən formalaşmış yerli və ənənəvi inzibati-ərazi bölgüsü məqsədyönlü surətdə dəyişdirildi. Ermənilərin İrandan kütləvi şəkildə köçürülərək, digər qədim Azərbaycan torpaqları kimi, keçmiş Naxçıvan xanlığının ərazisində də yerləşdirilməsinə başlandı. Naxçıvan diyarı Rusiya sənayesi üçün xammal bazasına çevrildi.

Azərbaycan dövlətləri olan Naxçıvan və İrəvan xanlıqları 1828-ci ildə Rusiyaya qatıldıqdan sonra çarizm Azərbaycan xalqına qarşı ən qəddar düşmənçilik aktı həyata keçirdi: 1828-ci il martın




21-də-Novruz bayramı günü hər iki Azərbaycan xanlığının torpaqlarında **«Erməni vilayəti»** yaradıldı. İran vı Osmanlı dövləti ərazisindən köçürülüb gətirilən ermənilər bu əzəli Azərbaycan torpaqlarında məskunlaşdırıldı.

Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi yerli əhali olan azərbaycanlıların kəskin müqaviməti ilə müşayiət olunurdu.Erməniləri Azərbaycana köçürməklə Çar Rusiyası Cənubi Qafqazda - Azərbaycan torpaqlarında bugünkü erməni dövlətinin əsasını qoydu.

1874-cü ilə qədər olan dövrdə tarixi Naxçıvan torpaqları çar Rusiyası tərəfindən dəfələrlə inzibati ərazi bölgüsünə məruz qalmış, keçmiş xanlıq torpaqlarının böyük bir hissəsi Naxçıvan qəzasına daxil edilmişdi[27]. Eyni zamanda Naxçıvan ərazisinin məqsədyönlü surətdə erməniləşdirilməsi siyasəti həyata keçirilirdi. İran və Türkiyədən ermənilər Azərbaycanın qədim torpaqlarına, o cümlədən Naxçıvana köçürülür, əhalinin etnik tərkibi qəsdən dəyişdirilirdi. Lakin Naxçıvanın türk-müsəlman əhalisi bu qəddar siyasətə qarşı qəhrəmanlıqla mübarizə aparır, ermənilərin doğma Vətən torpaqlarında möhkəmlənməsinə yol vermirdilər.

Arxiv məlumatlarına görə Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində Naxçıvan dairəsinin mahalları üzrə 1830-cu illərdə əhalinin etnik tərkibi belə idi:

*Cədvəl 2*

# NAXÇIVAN DAİRƏSİNİN MAHALLARI ÜZRƏ ƏHALİNİN, O CÜMLƏDƏN KÖÇKÜN ERMƏNİLƏRİN BÖLGÜSÜ (1830-cu İLLƏR)[28]

| Mahallar | Kəndlərin sayı | Təsərrüfatlar | | |
|---|---|---|---|---|
| | | Azərbaycanlılar | Ermənilər | |
| | | | 1830-cu ildən əvvəl köçürülüb gətirilənlər | 1830-cu ildən sonra köçürülənlər |
| Əlincə | 24 | 400 | 120 | 120 |
| Dərələyəz | - | 1283 | 58 | 731 |
| Naxçıvan | 59 | 1884 | 309 | 1207 |
| Xok | 9 | 292 | 43 | |
| Naxçıvan ş. | - | 905 | 156 | 269 |

Cədvəldən aydın olur ki, ermənilərin kütləvi surətdə köçürülüb gətirilmələrinə baxmayaraq Naxçıvan əhalisinin əksəriyyəti yenə də azərbaycanlılardan ibarət idi. Ordubad dairəsi və Şərura aid olan məlumatlarda təsdiq edir ki, göstərilən bütün cəhdlərə baxmayaraq, Naxçıvan əhalisinin etnik tərkibini ermənilərin xeyrinə dəyişdirmək mümkün olmamışdı.

1917-ci il Oktyabr çevrilişi ərəfəsində Naxçıvan bölgəsi əhalisinin sayı 170.142 nəfər idi. Onlardan 122.208 nəfəri Naxçıvan qəzasında, 40.000 nəfəri Şərurda, 8.934 nəfəri Naxçıvan şəhərində yaşayırdı[29].

Naxçıvanın iqtisadiyyatı da çarizmin müstəmləkəçilik siyasətinin tələblərinə uyğunlaşdırılmışdı. Naxçıvanın sənayesi duz mədənləri və bir neçə toxuculuq manufakturalarından ibarət idi. Bununla yanaşı pambıqçılıq və ipəkçilik də inkişaf etmişdi.

Naxçıvanlılar sosial ədalətsizlik və milli zülmə qarşı qətiyyətlə mübarizə aparırdılar.

1905—1907-ci illər inqilabı dövründə burada güclü kəndli çıxışları olmuşdu. 1905—1906-cı illərdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımları zamanı naxçıvanlılar kütləvi qırğınlara və zorakılıqlara məruz qalmış, erməni quldurlarına və onların himayəçisi olan çar hakimiyyəti dairələrinə qarşı qəhrəmancasına mübarizə aparmışdılar. Naxçıvan tarixinin bu qanlı faciələri, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları əslən Naxçıvandan olan böyük Azərbaycan yazıçısı ***M.S.Ordubadinin*** «Qanlı illər» kitabında konkret faktlarla əks olunmuşdur[30]. Rusiya Naxçıvanı işğal etdikdən sonra kəngərlilərin irsi hakimiyyətinə və Naxçıvanın geniş torpaqlarına olan mülkiyyət hüququna son qoydu. Lakin buna baxmayaraq kəngərlilər diyarın həyatında, həmçinin Rusiya imperiyasının silahlı qüvvələri tərkibində mühüm rol oynamaqda davam edirdilər. Rusiya silahlı qüvvələri tərkibində *Kəngərli*(Naxçıvan) *süvari dəstəsi* (1829) və *Naxçıvan bəy drujinası* (1853) fəaliyyət göstərirdi. Rus ordusunun zabit korpusunda da nüfuzlu naxçıvanlılar vardı. Kəngərli nəslinə məxsus olan görkəmli tarixi şəxsiyyətlər bu dövrdə, hətta sovet hakimiyyətinin ilk vaxtlarında da, *Naxçıvanskilər* kimi daha çox məşhur idilər. Sonuncu Naxçıvan xanı Ehsan xanın oğulları *İsmayıl xan* (1819-1909) və *Kalbalı xan* (1824-1883) *Naxçıvanskilər*, Kalbalı xanın oğlu *Hiiseyn xan Naxçıvanski* (1863-1919), Cəfərqulu xanın oğlu *Cəmşid xan Naxçıvanski* (1895-1938) öz cəsurluqları və hərbi təşkilatçılıq istedadları ilə rus və sovet ordusunda böyük şöhrət qazanmışdılar[31].

**Cəmşid Cəfərqulu oğlu Naxçıvanski** (10.8.1895, Naxçıvan ş. - 26.8.1938) - Azərbaycanın görkəmli hərbi xadimi, briqada komandiri. Yelizavetqrad (Qərbi Ukrayna) qvardiya məktəbini bitirmişdir [1915-ci il]. Birinci Dünya müharibəsində [1914-1918-ci illər] müsəlmanlardan təşkil olunmuş süvari eskadronunun komandiri olmuş, «Brusilov cəbhəsi»nin yarılmasında iştirak etmiş, 4-cü dərəcəli «Müqəddəs Georgi» ordeni ilə təltif olunmuşdur. Avstriya-Rumıniya cəbhəsində üç dəfə yaralanan Naxçıvanski igid süvari zabiti kimi gümüş silahla mükafatlandırılmış, 2-ci, 3-cü, 4-cü dərəcəli «Anna», 2-ci dərəcəli «Stanislav» ordenləri ilə təltif olunmuşdu. Cənub-qərb cəbhəsi dağıdıldıqdan sonra ştab-rotmistri Naxçıvanski başçılıq etdiyi alayla birlikdə Azərbaycana qayıtmış, 1918-ci il sentyabrın 15-də türk qoşunları və Azərbaycan Əlahiddə Korpusu ilə birgə Bakının daşnak, eser-menşeviklərdən ibarət olan və ingilislərə arxalanan «Sentrokaspi diktaturası» qüvvələrindən azad olunmasında fəal iştirak etmişdi. Naxçıvanski Azərbaycanın müstəqilliyi uğrunda inamla vuruşmuşdur.1920-ci ilin martında onun Qarabağda (Şuşada) yerləşən alayı daşnaklara qarşı döyüş əməliyyatlarında fəal iştirak etmişdi. Aprel işğalından (1920-ci il) sonra onun süvari alayı bolşeviklərin tərəfinə keçmişdir. Nəriman Nərimanov Şuşaya - Cəmşid Naxçıvanskiyə dərhal Bakıya qayıtmaq, milli ordu hissələrinin təşkilinə başlamaq haqqında teleqram göndərmişdi. O, Bakıda yaradılmış Azərbaycan Birləşmiş Komanda Məktəbinin rəisi, 1921-ci ilin dekabrında isə Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri təyin olunmuş, yüksək ixtisaslı hərbi kadrlar hazırlığında mühüm rol oynamışdır.



C.Naxçıvanski 1923 və 1928-ci illərdə Moskvada Ali Hərbi Akademiyanın qısamüddətli kurslarında təhsil almış, Azərbaycana qayıtdıqdan sonra yenidən diviziya komandiri olmuşdur. 1922-1929-cu illərdə general Əlağa Şıxlinskinin təşəbbüsü ilə Azərbaycan dilində nəşr olunan «Hərbi bilik» jurnalının redaktorlarından biri idi. C.Naxçıvanski 1931-ci ildə Moskvaya M.V.Frunze adına Ali Hərbi-Siyasi Akademiyaya oxumağa göndərilmişdi. Akademiyanı fərqlənmə diplomu ilə bitirdikdən [1933-cü il] sonra, orada müəllim saxlanılmış, 3 il Ümumi taktika kafedrasına rəhbərlik etmiş, akademiyada əsas fakültənin kurs rəisi olmuşdur. 1935-ci ildə C.Naxçıvanski briqada komandiri (kombriq) hərbi vəzifəsinə təyin olunmuşdu.

30-cu illərin sonlarında C.Naxçıvanski guya başçılıq etdiyi «casus təxribat dəstəsi» ilə mühacirətdə olan qardaşları Davud xan və Kalbalı xanla əlaqə saxlamaqda təqsirləndirilərək repressiyaya məruz qalmışdır (Davud xan və Kalbalı xan Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra rəsmi icazə alıb İrana getmiş, tezliklə Şah qvardiyasında yüksək rütbələrə çatmışdılar. Lakin onların qardaşı Cəmşid Naxçıvanskinin Sovet Ordusunda briqada komandiri olmasını, ata-babalarının isə rus qoşunlarının tərkibində İran ordusuna qarşı vuruşmasını bilən şah onları güllələtdirmişdi).

C.Naxçıvanski Azərbaycan Sovet Sosialist Respublikası və Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitələrinin üzvü idi. «Qırmızı bayraq», «Qırmızı Əmək Bayrağı», «Qırmızı Ulduz» ordenləri ilə təltif edilmişdir. Adına Bakıda hərbi lisey, Bakıda və Naxçıvanda küçə var. Naxçıvanda ev-muzeyi yaradılmışdır[32].

Naxçıvan diyarı, əvvəlki tarixi dövrlərdə olduğu kimi, XIX-XX yüzilin əvvəllərində də Azərbaycan mədəniyyətinin inkişafında və daha da zənginləşməsində çox mühüm rol oynamışdır. Bu diyarda maarifin inkişafında əvvəlki ənənələr davam etmiş, 1882-ci ildə Ordubadda «Əxtər», 1894-cü ildə isə Naxçıvanda «Tərbiyə» adlanan yeni tipli məktəblər açılmışdı. Bu məktəblərin açılmasında böyük xidməti olmuş ***M. T.Sidqi*** **1**896-cı ildə Naxçıvanda ilk dünyəvi qız məktəbi də təşkil etmişdi.

Azərbaycanda elm, ədəbiyyat və incəsənətin inkişafında ***Məhəmmədağa Şahtaxtlı*** **(1846-1931),** ***Məhəmməd Tağı Sidqi*** (1854-1903), ***Cəlil Məmmədquluzadə*** (1869-1932), ***Məmməd Səid Ordubadi*** (1872-1950), ***Əliqulu Qəmküsar*** (1880-1919), ***Hüseyn Cavid*** (1882-1941), ***Bəhruz Kəngərli*** (1892-1922), ***Əziz*** **Şərif** (1895-1998), ***Kazım Ziya*** (1896-1956), ***Yusif Məmmədəliyev*** (1905-1961), ***İslam Səfərli*** (1923-1974), ***Hüseyn Razi*** (1924-1998), ***Zəroş Həmzəyeva*** (1925-2004), ***Məmməd Araz*** (1933-2004), ***Hüseyn İbrahimov*** (1919), ***Əkrəm Əylisli*** (1937) və bu diyarda doğulmuş digər elm və mədəniyyət xadimlərinin böyük xidmətləri olmuşdur.

**Cəlil Məmmədqulu oğlu Məmmədquluzadə** (təxəllüsü Molla Nəsrəddin; 22.2.1869, Naxçıvan - 4.1.1932, Bakı) - görkəmli Azərbaycan yazıçısı; dramaturq, jurnalist, ictimai xadim. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ərəfəsində müstəqil milli dövlətçilik ideyalarının formalaşmasında mühüm rol oynamışdır. İlk təhsilini mollaxanada, sonra isə üçsinifli Naxçıvan şəhər məktəbində almışdır. Qori Müəllimlər Seminariyasını bitirdikdən [1887-ci il] sonra, İrəvan quberniyasının Uluxanlı, Naxçıvan mahalının Cəlilkənd (Şərur rayonu) və Nehrəm kəndlərində müəllimlik etmişdir [1887-1897-ci illər]. Naxçıvanda və İrəvanda müxtəlif hüquq idarələrində çalışmışdır [1897-1903-cü illər]. Cəlil Məmmədquluzadənin yazıçı və jurnalist kimi püxtələşməsində 1903-cü ildən Tiflisdə nəşr edilən «Şərqi-Rus» qəzetində işləməsinin və onun redaktoru *Məhəmmədağa Şahtaxtlının* mühüm rolu olmuşdur. İlk mətbu əsəri olan «Poçt qutusu» hekayəsi bu qəzetdə dərc edilmişdir. 1905-ci ilin əvvəlində «Şərqi-Rus» bağlanarkən jurnalist Ömər Faiq Nemanzadə və maarifpərvər tacir Məşədi Ələsgər Bağırzadə ilə şərikli bu qəzetin mətbəəsini alıb, onu «Qeyrət» adlandırmışdır. Ədibin ilk kitabçaları «Qeyrət» mətbəəsində nəşr olunmuşdur [1905-1907-ci illər]. 1905-ci ildə Tiflisdə uşaqlar üçün məktəb və pansion açmışdır.



Cəlil Məmmədquluzadə 1906-cı il aprelin 7-də (20-də) «Molla Nəsrəddin» jurnalının ilk nömrəsini nəşr etdirdi. Bununla Azərbaycanda, eləcə də bütün türk-müsəlman dünyasında satirik jurnalistikanın əsasını qoydu. Jurnalın təbliğ etdiyi demokratik və azadlıq ideyaları ona ümumxalq

məhəbbəti, beynəlxalq aləmdə böyük nüfuz qazandırdı. Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə mollanəsrəddinçilər Yaxın və Orta Şərqdə «Molla Nəsrəddin məktəbi» adlı qüdrətli mətbuat və ədəbiyyat məktəbi yaratdılar. Başqa mollanəsrəddinçilər kimi, Cəlil Məmmədquluzadə də irtica və qaragüruhçuların arasıkəsilməz təqib və təzyiqinə məruz qalırdı. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, «Qeyrət» mətbəəsində axtarışlar aparır, bəzən də «Molla Nəsrəddin»in nəşrini dayandırırdı. Jurnal müəyyən fasilələrlə 1931-ci ilədək Tiflisdə (340 nömrə), Təbrizdə (8 nömrə) və Bakıda (400 nömrə) nəşr edilmişdir.

Cəlil Məmmədquluzadə 1918-1920-ci illərdə, əsasən, Qarabağda, ömür-gün yoldaşı Həmidə xanımın malikanəsi olan Kəhrizli kəndində yaşamışdır. Azərbaycan Xalq Cümhuriyyətini dəstəkləmiş, Əsgəran uğrunda döyüşlərdə iştirak etmişdir. O və Həmidə xanım 1919-cu il iyunun 18-də Ağdamdan Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin sədri Nəsib bəy Yusifbəyliyə və parlamentin üzvləri Məhəmməd Əmin Rəsulzadəyə və Əhməd bəy Pepinova teleqram göndərərək, Ermənistanda azərbaycanlılara qarşı aparılan soyqırım siyasəti nəticəsində ev-eşiklərindən didərgin düşüb, Qarabağ general-qubernatorluğu ərazisinə pənah gətirmiş 50 minə yaxın soydaşımızı Mil düzünün yarım milyon desyatinlik torpaqlarında yerləşdirmək, 15 mindən yuxarı əmək qabiliyyətli qaçqını işlə təmin etmək barədə Əmək və Əkinçilik Nazirliyinin qaldırdığı məsələyə qoşulduqlarını bildirmişlər.

Cəlil Məmmədquluzadə sovet dövründə «Molla Nəsrəddin» jurnalı və «Yeni yol» (Bakı) qəzetinin redaktoru, Ümumittifaq Mərkəzi Yeni Əlifba Komitəsinin üzvü, Bakı Tənqid-Təbliğ Teatrının təşkilatçılarından olmuşdur.

1920-ci illərin 2-ci yarısından etibarən Cəlil Məmmədquluzadənin həyatında təqiblər dövrü başlanmışdır. «Molla Nəsrəddin» jurnalına ciddi senzura nəzarəti qoyulmuş, jurnalın nəşri üçün ayrılan dövlət vəsaiti azaldılmışdır. Hətta «Molla Nəsrəddin» jurnalı Mübariz Allahsızlar Cəmiyyətinin orqanına çevrilmiş və Cəlil Məmmədquluzadə redaktorluqdan uzaqlaşdırılmışdı. Bütün bunlar, habelə digər haqsızlıqlar böyük demokrat ədib üçün gözlənilməz ağır mənəvi zərbələrə çevrilmiş, yazıçının sağlamlığını ciddi surətdə sarsıtmışdır.

Cəlil Məmmədquluzadə realist Azərbaycan ədəbiyyatının yeni, yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. Mirzə Fətəli Axundzadənin realist ənənələrinə əsaslanan ədib öz yaradıcılığında ədəbiyyatı və mətbuatı geniş xalq kütlələrinin mənafeyi uğrunda mübarizəyə yönəltmək, onu bütün xalqın, hətta sadə və savadsız, avam adamların malı etmək qayəsini güdürdü.

«Danabaş kəndinin əhvalatları» povestində və ilk hekayələrində («Poçt qutusu», «Usta Zeynal», «Qurbanəli bəy» və s.) yazıçı feodal-patriarxal münasibətləri, çar məmurlarının və din xadimlərinin özbaşınalığını, şüurlarda və məişətdəki geriliyi, mövhumat, cəhalət və xurafatı, qadınların acınacaqlı taleyini böyük vətəndaş yanğısı ilə qələmə almışdı. Məşhur «Ölülər» [1909-cu il] tragikomediyası Azərbaycan realizmi və satirası tarixində şərəfli yer tutur. Bu əsərdə Cəlil Məmmədquluzadə «ölülər» mühitinin rəzalətlərini nifrətlə damğalamış, işıqlı həyat haqqında arzuların tərcümanı olmuşdur.

Cəlil Məmmədquluzadə publisistikasında da, əsasən satirik janrlardan istifadə etmişdir. O, çarizm, sosial ədalətsizlik, fanatizm, xurafat, cəhalət və nadanlıq, köhnəlmiş zehniyyət, vaxtı ötmüş, ictimai tərəqqini buxovlayan adət-ənənələr, Qərb imperializminin müstəmləkəçilik siyasəti və Şərq istibdadı əleyhinə çevrilmiş yüzlərlə publisistik məqalə, felyeton və satirik miniatürün müəllifidir. Mirzə Fətəli Axundzadə kimi, Cəlil Məmmədquluzadə də ustalıqla, eyhamlar vasitəsilə məzlumları birləşib, «islam millətini çürüdən və çürütməkdə olan milyonca... həşaratlarla, zorbalarla» haqq-hesab çəkməyə çağırırdı. «Cümhuriyyət» [1917-ci il] adlı məqaləsində çarizmin devrilməsini alqışlayan ədib, onun yerində xalq hakimiyyəti, demokratik respublika qurulması tələbini irəli sürərək yazırdı: «Padşahlıq taxtından yıxılan Nikolayın zalım və xain idarəsi dağılandan sonra Rusiya məmləkətində yaşayan millətləri, o cümlədən də biz müsəlmanları məşğul edən tək bir məsələdir: həmin məsələ cümhuriyyət məsələsidir”.

Cəlil Məmmədquluzadə və onun ətrafında birləşən ziyalılar azərbaycançılığın əsaslarını yaratdılar. Xalqımızın tarixi taleyi ilə bağlı olan bu məfkurə Azərbaycanın milli maraqlarını önə

çıxaran bir yol idi. Ədib bu yolu 1917-ci ilin noyabrında «Molla Nəsrəddin»də dərc olunan «Azərbaycan» məqaləsində ifadə etmiş və Rusiyada baş verən hadisələrin Azərbaycanın istiqlalına doğru apardığını uzaqgörənliklə duymuşdu. Məqalədə vahid Azərbaycan ideyası qabarıq şəkildə irəli sürülürdü. Parçalanmış Vətənin coğrafi hüdudları haqqında məlumat verən ədib «Haradadır Azərbaycan» sualının cavabında yazırdı: «Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub, qədim Rusiya hökumətilə Osmanlı hökuməti daxilindədir ki, bizim Qafqazın böyük parçası ilə Osmanlı Kürdüstanından, Bəyaziddən ibarət olsun».

Cəlil Məmmədquluzadə Azərbaycanın həqiqi övladlarını birləşib, Vətəni «yad millətlərin südünü əmmiş», millətin «ruhundan xəbərsiz» olan xainlərin xəyanətindən qorumağa, birliyini bərpa etməyə səsləyirdi: «Ax, gözəl Azərbaycan vətənim! Harada qalmısan? Ay torpaq çörəyi yeyən təbrizli qardaşım, ay keçəpapaq meşkinli, sərablı, goruslu və moruslu qardaşlarım... Gəlin, biz də bir dəfə oturaq və keçə papaqlarımızı ortalığa qoyub bir fikirləşək, hardadır bizim vətənimiz?». Göründüyü kimi, hər iki məqalədə Azərbaycan Xalq Cümhuriyyəti uğrunda mübarizənin ideoloji əsasları öz əksini tapmışdır.

Azərbaycançılıq məfkurəsi böyük demokratın «Anamın kitabı» [1919-cu il] pyesində xüsusilə bariz əks olunmuşdur. Vətəndaş ədib əsərdəki rəmzi «Anamın kitabı» obrazı ilə o dövr üçün son dərəcə mühüm və aktual ictimai-siyasi əhəmiyyət kəsb edən Azərbaycanın bütövlüyü və müstəqilliyi ideyasını yüksək sənətkarlıqla ümumiləşdirmişdi.

Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə və b. Cəlil Məmmədquluzadənin ədəbi-ictimai fəaliyyətini yüksək qiymətləndirmişlər[33].

XIX əsrdə Naxçıvanda «Qönçeyi-ülfət», «Əncüməni-şüəra» (Ordubad, 1838) kimi ədəbi məclislər fəaliyyət göstərmiş, 80-ci illərin əvvəllərində "Ziyalı məclisi", «Müsəlman şiə incəsənəti və dram cəmiyyəti» təşkil olunmuşdu. 1886-cı ildə Naxçıvan teatrının əsası qoyulmuşdur. **B.Kəngərlinin** (1892-1922) yaradıcılığı ilə Azərbaycan incəsənətində realist dəzgah *boyakarlığı, portret və mənzərə* janrları inkişafa başlamışdır.

XIX-XX əsrin əvvəllərində Naxçıvanda xalq yaradıcılığının bir çox sahələri, o cümlədən xalçaçılıq, toxuculuq, zərgərlik və b. sənətkarlıq sahələri yüksək inkişaf etmişdi. Birinci Dünya müharibəsi [1914-1918-ci illər] illərində bütün Azərbaycan torpaqları kimi Naxçıvan diyarı da tarixin ən ağır sınaqları qarşısında qaldı. Azərbaycanın digər torpaqları kimi Naxçıvan da öz hərbi-siyasi mövqeyinə görə böyük dövlətlərin maraq dairəsinə daxil idi. Digər tərəfdən, «Böyük Ermənistan» yaratmaq xülyasına düşən erməni millətçiləri Şərqi Anadolu ilə yanaşı Naxçıvan da daxil olmaqla bütün Şimali Azərbaycanı ələ keçirməyə çalışırdılar.

1918-ci il mayın 28-də Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa edərək **Azərbaycan Xalq Cümhuriyyətini** yaratsa da, ermənilər öz çirkin planlarından əl çək-mədilər. Bakıda S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik hökumətinin yaranması və türk qoşunlarının Mudros barışığına əsasən Naxçıvanı tərk etməsilə vəziyyət daha da ağırlaşdı. Ermənilər yaranmış vəziyyətdən istifadə edərək, azərbaycanlılara qarşı kütləvi soyqırımları həyata keçirir, əzəli Azərbaycan torpaqları olan Naxçıvanı, Zəngəzuru, Qara-bağı ələ keçirmək istəyirdilər. Hər tərəfdən düşmən mühasirəsinə düşmüş Naxçıvanın istiqlal mücahidləri xalqı ermənilər tərəfindən törədilən soyqırımından xilas etmək üçün 1918-ci ilin noyabrında **Araz Türk Cümhuriyyətini** yaratdılar. Paytaxtı Naxçıvan şəhəri olan Araz Turk Cümhuriyyəti Naxçıvan qəzası, Şərur-Dərələyəz və Ordubad mahallarını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və b. ərazilərı əhatə edirdi. Cümhuriyyətin Nazirlər Şurasına ***Əmir bəy Əkbərzadə*** rəhbərlik edirdi. Araz Türk Cüm-huriyyəti bölgəni və onun əhalisini erməni basqınlarından qorumaq məqsədilə silahlı




dəstələr yaratmış və düşmənə qarşı fəal hərbi əməliyyatlar keçirmişdi.

Düşmən əhatəsində qalmış Araz Türk Cümhuriyyəti özünü Azərbaycan Xalq Cümhuriyyətinin tərkib hissəsi hesab edir və Bakı ilə əlaqələr yaratmaq üçün bütün imkanlardan istifadə edirdi. Araz Türk Cümhuriyyətinin nümayəndə heyəti 1919-cu il martın 8-də Naxçıvandan Bakıya gəlmişdi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti də Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana diqqəti artırmağa çalışırdı. Lakin 1919-cu ilin əvvəllərində Naxçıvanı ingilislər tutdu. Erməniləri dəstəkləyən ingilislərin müdaxiləsi nəticəsində 1919-cu ilin martında Araz Türk Cümhuriyyəti süqut etdi. Bununla belə, Araz Türk Cümhuriyyəti Azərbaycanın düşdüyü çox ağır şəraitdə bölgənin azərbaycanlı əhalisinin qüvvələrini düşmənlərə qarşı birləşdirməkdə mühüm rol oynamış, əhalinin daşnaklar tərəfindən məhv edilməsinin qarşısını almış, ən başlıcası isə bölgənin ermənilərin əlinə keçməsinə imkan verməmişdi. Və bununla da Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü təmin olunmuşdu[34].

1919-cu ilin ikinci yarısında regionda ABŞ-ın rolu artdı. Lakin Naxçıvanda Amerika general-qubernatorluğu yaratmaq təşəbbüsü də uğursuzluqla nəticələndi. Bu dövrdə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkənin ərazi bütövlüyü uğrunda mübarizədə müəyyən uğurlar qazanmasına baxmayaraq ehtiyatsızlığa da yol verdi. Cümhuriyyət hökuməti Ermənistanla 1919-cu il noyabrın 23-də bağlanılmış sazişə inanaraq qoşunlarını Zəngəzurdan çıxardı. Bundan istifadə edən ermənilər Zəngəzuru ələ keçirdilər. Lakin onların Naxçıvanla bağlı işğalçılıq planları boşa çıxdı. Böyük çətinliklər bahasına da olsa Naxçıvanı erməni işğalından qorumaq mümkün oldu.

1920-ci ilin Aprel işğalı nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti devrildi. Şimali Azərbaycan sovetləşdirildi. İyulun 28-də Naxçıvanda Sovet hakimiyyəti quruldu və Naxçıvan Sovet

Sosialist Respublikası yaradıldı[35]. Respublikanın ali orqanı Hərbi İnqilab Komitəsi (HİK) oldu. ***M.Bəktaşov, A.Qədimov, F.Mahmudbəyov, Q.Babayev*** və b. HİK-in tərkibinə daxil edildilər. HİK-in Azərbaycan SSR Xalq Komissarları Şurasının sədri ***Nəriman Nərimanova*** 1920-ci il 10 avqust tarixli məktubunda deyilirdi ki, Naxçıvan diyarı, zəhmətkeşlərin böyük əksəriyyətinin arzu və tələblərini nəzərə alaraq, özünü Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi elan etmişdir.

Lakin bu mühüm qərarı reallaşdırmaq üçün Naxçıvanı daşnak-erməni təcavüzündən qorumaq lazım idi. 1920-ci ilin sentyabrında Naxçıvana daşnak-erməni hərbi hissələrinin hücumu başlandı. Lakin doğma torpağın müdafiəsinə qalxan naxçıvanlılar ermənilərin hücumlarını dəf etdilər. Sentyabrın 18-də Ordubad azad olundu. Noyabr ayında erməni hərbi dəstələrinin yeni hücumunun da qarşısı alındı. Əks hücumla Şərur azad edildi. Beləliklə, bu dövrdə də Naxçıvan əhalisi doğma diyarın ermənilərin əlinə keçməsinə imkan vermədi.

1920-ci il noyabrın 29-da XI Qırmızı Ordu hissələri Ermənistanda Sovet hakimiyyəti qurduqdan sonra Naxçıvan üçün təhlükə daha da artdı. Sovet Rusiyası müxtəlif vasitələrlə Naxçıvanın Ermənistana birləşdirilməsinə cəhd göstərdi. Yalnız Naxçıvan əhalisinin inadlı müqaviməti və mübarizəsi sayəsində həmin antiazərbaycan siyasətinin həyata keçirilməsinin qarşısı alındı. Bu işdə Bakıdan Naxçıvana gələn Azərbaycan SSR Ədliyyə Komissarı ***Behbud ağa Şahtaxtinski*** (1881-1924) mühüm rol oynadı[36]. **Bütün bunların nəticəsində Ermənistan Hərbi İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdı və daşnakların bu ərazi ilə əlaqədar iddialarından imtina etdiklərini dünyaya bildirdi[37].**

Ermənistan HİK-in bu bəyannaməsi, eyni zamanda, kamalçılar Türkiyəsi ilə yaxınlaşmağa çalışan Sovet Rusiyasının regionla bağlı xarici siyasətinə uyğun idi.

Beləliklə, əldə olunan uğurlardan istifadə edərək real addımlar atmaq və Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyətini təmin etmək lazım idi. Bunun üçün isə ilk əvvəl türklərə Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyət alacağı barədə təminat verilməli və buna Moskvanın razılığı əldə olunmalı idi. 1921-ci ilin fevral-martında bu istiqamətdə danışıqlar aparıldı. Danışıqlarda o dövrdə N.Nərimanovun tapşırığı ilə Moskvaya getmiş B.Şahtaxtinskinin mühüm xidmətləri olmuşdur[38].

Sovet-Türkiyə danışıqları nəticəsində 1921-ci il martın 16-da iki ölkə arasında Moskva müqaviləsi imzalandı. Müqavilə 16 maddədən və 2 əlavədən ibarət idi. Onun **III maddəsində** deyilirdi: **«Razılığa gələn hər iki tərəf Naxçıvan vilayətinin hazırkı Müqavilənin I (s) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın protektoratlığı altında muxtar ərazi yaratmasına razıdırlar, o şərtlə ki, Azərbaycan bu protektoratlığı üçüncü dövlətə güzəştə getməməlidir»[39].** Bu maddə Naxçıvanın taleyinin həll edilməsində tarixi əhəmiyyətə malik oldu. 1921-ci il oktyabrın 13-də Qarsda bağlanmış Sovet-Türkiyə müqaviləsi də bu müddəanı təsdiq etdi. Müqavilənin **beşinci maddəsində** deyilirdi ki, **Türkiyə hökuməti və Sovet Ermənistanı və Azərbaycanı hökumətləri Naxçıvan vilayətinin hazırkı Müqavilənin III əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi yaratmasına razıdırlar[40].** Azərbaycan MİK-in 1922-ci il 3 mart tarixli sessiyasında 1921-ci il 16 mart və 13 oktyabr tarixli müqavilələr təsdiq olundu. Bununla, həmin müqavilələrin Naxçıvana aid müddəasının hüquqi cəhətdən həyata keçirilməsi reallaşdırılmağa başladı. Azərbaycan SSR Naxçıvan üzərində hüquqlarından irəli gələn vəzifələri həyata keçirirdi. Bununla belə, Naxçıvanın Azərbaycan SSR tərkibində muxtar respublika hüququnun qanuni yolla təsbit edilməsi 1924-cü ilin fevralınadək ləngidildi.

1922-ci ilin dekabrında Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR ZSFSR-də birləşdi. Dekabrın 30-da hər üç respublika ZSFSR tərkibində SSRİ-yə daxil oldu. Bununla Azərbaycan SSR-in suveren hüquqları məhdudlaşdırıldı. Buna baxmayaraq, Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyətinin təsbit edilməsi, ləng də olsa, həyata keçirilirdi. 1923-cü il fevralın 27-də III Ümumnaxçıvan Sovetlər qurultayı Naxçıvan SSR-in muxtariyyət hüquqları əsasında Azərbaycan SSR tərkibinə daxil edilməsi haqqında qərar çıxardı və Azərbaycan MİK-ə müraciət etdi. Azərbaycan MİK-in üçüncü sessiyası Ümumnaxçıvan Sovetlər qurultayının qərarını

təsdiq etdi.

Naxçıvan SSR-in muxtar diyar kimi təşkil olunması Azərbaycan MİK-in Naxçıvan Muxtar Diyarı haqqında Əsasnaməsi ilə həyata keçirilirdi. Bununla Naxçıvanın əvvəlki siyasi hüquqları məhdudlaşdırılırdı. Respublikadan təcrid olunmuş şəraitdə yaşayan Naxçıvan üçün bunu qənaətbəxş hesab etmək olmazdı. Ona görə də 1923-cü ilin sonunda Naxçıvan Muxtar Diyarının *Muxtar Respublikaya* çevrilməsi məsələsi irəli sürüldü. Azərbaycan MİK 1923-cü il dekabrın 31-də bu barədə qərar qəbul etdi. Zaqafqaziya MİK-in 1924-cü il yanvarın 8-də keçirilən birinci plenumu Naxçıvan Muxtar Diyarının Muxtar Respublikaya çevrilməsi haqqında qərar qəbul etdi. Bundan sonra yanvarın 18-də Naxçıvan MİK-in plenumu çağırıldı, yuxarı orqanların göstərilən qərarı təsdiq olundu, Naxçıvan MSSR hakimiyyət orqanları təşkil edildi[41].

Azərbaycan MİK-nin **1924-cü il 9 fevral tarixli dekreti ilə** Naxçıvan Muxtar Diyarının *Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına* çevrilməsi təsbit olundu. Beləliklə, ermənilərin Naxçıvanın Azərbaycandan qoparılmasına yönəlmiş düşmənçilik fəaliyyətləri boşa çıxdı, Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması və onun Azərbaycan dövlətçiliyindəki yeri öz ədalətli hüquqi qiymətini aldı.

***Naxçıvan MSSR-in yaradılması ərəfəsində Azərbaycanın sonrakı tarixi müqəddəratında misilsiz rol oynayan bir hadisə baş verdi: 1923-cü il may ayının 10-da dahi dövlət xadimi Heydər Əliyev Naxçıvan şəhərində dünyaya göz açdı.***

***Heydər Əliyev*** Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan torpağının dünyaya bəxş etdiyi dahi şəxsiyyətlər sırasında xüsusi yer tutur.

**ƏLİYEV Heydər Əlirza oğlu** (10.5.1923, Naxçıvan ş. - 12.12.2003, Klivlend, ABŞ; Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur) - dünya tarixinin dahi şəxsiyyətlərindən biri, Azərbaycanın böyük siyasi və dövlət xadimi. Dünya azərbaycanlılarının ümummilli lideri, Azərbaycan xalqının qurtuluş mübarizəsinin [1990-1993-cü illər] öndəri. Yeni Azərbaycan Partiyasının [1992-ci il] banisi, Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisi olan müasir Azərbaycan dövlətinin qurucusu və Azərbaycan Respublikasının Prezidenti [1993-2003-cü illər]. Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra 1939-1941-ci illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbayan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. 1941-ci ildən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Naxçıvan MSSR) Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri işləmişdir. 1944-cü ilin mayında Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmiş, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, leytenantlıqdan general rütbəsinədək yüksəlmişdir. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1964-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir. Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində fəaliyyəti dövründə bu mühüm strukturun azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (AKP MK) iyul (1969-cu il) plenumunda Heydər Əliyev AKP MK-nın birinci katibi, MK-nın büro üzvü seçilmişdir. Bununla, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin **birinci dövrü** başlanmışdır. Heydər Əliyev AKP MK-nın avqust [1969-cu il] plenumundakı məruzəsi ilə respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyi əsaslı surətdə yaxşılaşdırmağın, dövlət və əmək intizamını möhkəmləndirməyin, kadrların məsuliyyətini artırmağın yeni xəttini müəyyən etmişdir. Bu xətt Heydər Əliyevin sonrakı məruzə və çıxışlarında daha da inkişaf etdirilərək elmi surətdə əsaslandırılmış, respublikanın iqtisadi-siyasi həyatında xalqın mənəviyyatına mənfi təsir göstərən tənəzzül meyillərinin qarşısının alınması, sağlam mənəvi-psixoloji iqlimin, ictimai ovqatın bərqərar olunması uğrunda uzunmüddətli mübariz fəaliyyət proqramına çevrilmişdir. Heydər Əliyevin AKP-

nin 28-ci [I971-ci i] mart] və 29-cu [1976-cı il yanvar] qurultaylarında MK-nın hesabat məruzələri bu proqramın həyata keçirilməsində mühüm əməli rol oynamışdır. Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının (Sov.İKP) 24-cü [1971-ci il mart-aprel] və 25-ci [1976-cı il fevral-mart] qurultaylarında çıxış etmiş, həmin qurultaylarda Sov. İKP MK-nın üzvü seçilmişdir. Heydər Əliyev 1976-cı ilin martında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş, eyni zamanda, Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir.

Türk-müsəlman xalqlarına qarşı ayrı-seçkilik siyasətinin yeridildiyi şəraitdə SSRİ kimi nəhəng bir dünya dövlətinin ali rəhbərliyinə ucalmaqla Heydər Əliyev misilsiz dövlət idarəçiliyi istedadı və bacarığı nümayiş etdirmişdir.

SSRİ Konstitusiyası komissiyasının üzvü olan Heydər Əliyev yeni Konstitusiyanın hazırlanmasında fəal iştirak etmiş və Konstitusiyanı qəbul edən SSRİ Ali Sovetinin sessiyasında çıxış etmişdir [1977-ci il oktyabr]. Heydər Əliyev Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR) yeni konstitusiyasının layihəsini hazırlayan komissiyanın sədri kimi, Azərbaycan

ilinin Azərbaycan SSR-in dövlət dili olması haqqında maddənin respublika konstitusiyasına daxil edilməsinə nail olmuşdur [1977-ci il iyul]. Azərbaycan SSR Ali Sovetinin sessiyasında «Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında» məruzə etmişdir [1978-ci il aprel].

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən mükəmməl iqtisadi inkişaf konsepsiyası hazırlanmış, ənənəvi təsərrüfat sahələrinin şöhrəti və səmərəliliyi bərpa edilmiş, yeni-yeni istehsal sahələrinin, istiqamətlərinin əsası qoyulmuş, iqtisadiyyatın sənaye bazası genişləndirilmiş və müasirləşdirilmişdir. Nəticədə, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə [ 1969— 1982-ci illər] idarəetmə mexanizmi və metodlarının təkmilləşdirilməsi, qanunçuluğa ciddi əməl edilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafı sahələrində yüksək göstəricilər əldə edilməklə yanaşı, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli-mənəvi özünüdərkin, mədəniyyətin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, soykökü əsasında millətdə müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün də çox mühüm işlər görülmüşdür. Nəticədə, 1970—1980-ci illərin birinci yarısı respublikanın ictimai-iqtisadi və sosial-mədəni həyatında sürətli yüksəliş mərhələsi olmuş, müstəqil Azərbaycanın təməli qoyulmuşdur. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə [1969—1982-ci illər] ictimai-iqtisadi inkişafın və milli-mədəni oyanışın bütün sahələrində müstəqilliyə doğru böyük dönüş başlanmışdır.

Heydər Əliyev SSRİ-nin ali rəhbərliyi tərkibində fəaliyyət göstərdiyi dövrdə xalq təsərrüfatına rəhbərliyin bütün sahələrində tükənməz dövlət idarəçiliyi istedadı nümayiş etdirmiş, xüsusilə elm, təhsil, mədəniyyət və səhiyyənin inkişafına böyük qayğı göstərmişdir. Heydər Əliyev dövlətçilik fəaliyyətinin Moskva dövründə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın yalnız SSRİ məkanında deyil, həmçinin bütün dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

Heydər Əliyev SSRİ Ali Sovetinin (8, 9 və 10-cu çağırışlar) deputatı seçilmiş, 9-cu çağırış SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini, Azərbaycan SSR Ali Sovetinin (7, 8, 9 və 10-cu çağırışlar) deputatı və respublika Ali Soveti Rəyasət Heyətinin üzvü olmuş, Lenin ordeni (4 dəfə), Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına [1979, 1983-cü illər] layiq görülmüşdür.

1970-1980-ci illərdə Sov. İKP MK və SSRİ Ali Soveti nümayəndə heyətinin başçısı və üzvü kimi Meksika, Almaniya, Vyetnam, Koreya Xalq Demokratik Respublikası, Rumıniya, Yuqoslaviya, İtaliya, Misir, Suriya və Hindistana rəsmi səfərlər etmişdir.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sov. İKP MK Siyasi Bürosunun və şəxsən Baş katib M.S.Qorbaçovun yeritdiyi səhv xəttə, onun antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermiş və mövcud rejimə qarşı müxalif mövqe tutmuşdur.

Heydər Əliyev sovet qoşunlarının 1990-cı ilin 20 yanvarında Bakıda törət-diyi qanlı qırğınla əlaqədar ertəsi gün, Kreml rejiminin təqiblərinə və səhhətinin ağır olmasına baxmayaraq, Azərbaycanın Moskvadakı nümayəndəliyində verdiyi cəsarətli bəyanatında Azərbaycan xalqına qarşı silah işlədilməsini qətiyyətlə pisləmiş, Azərbaycan xalqının Qurtuluş mübarizəsinin önünə keçmişdir. Mübariz mövqeyini qətiyyətlə davam etdirən Heydər Əliyev Dağlıq Qarabağda kəskin münaqişəli vəziyyətlə bağlı mərkəzin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq 1991-ci ilin iyulunda Sov. İKP sıralarını tərk etmişdir.

Heydər Əliyev doğma xalqını milli-siyasi fəlakət burulğanından xilas etmək üçün 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda **Qurtuluş mübarizəsini** davam etdirmiş, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. 1992-ci ildə Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasınm təsis qurultayını keçirmiş və partiyanın sədri seçilmişdir.

Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü, xüsusilə onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı illər [1991—1993-cü illər] muxtar respublikanın siyasi, sosial-iqtisadi və mədəni inkişafının çətin, eyni zamanda əlamətdar dövrüdür. Heydər Əliyev, birinci növbədə, Naxçıvan Muxtar Respublikasını Ermənistanın silahlı təcavüzü və işğalı təhlükəsindən xilas etdi. Bu illərdə Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın Ali Məclisi onun adından "sovet, sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin [1918—1920-ci illər] üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olünması haqqında qərarlar qəbul etdi. Blokada şəraitində olan muxtar respublikanın iqtisadi problemlərinin həllinə ciddi diqqət yetirildi. Qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. Naxçıvanı Türkiyə ilə birləşdirən «Ümid körpüsü», İranla yük və sərnişin daşınmasını genişləndirən Şahtaxtı-Poldəşt körpüsü inşa edildi və s.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən, eyni zamanda Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmişdir. Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasındakı [1991-ci il fevral] çıxışında Vətənin ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, müstəqillik uğrunda mübarizəyə qoşulmağa gəldiyini bəyan etmiş, dağılmaqda olan Sovet İttifaqında, eləcə də Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti obyektiv təhlil edərək, cəmiyyəti dərindən düşündürən problemlər barədə mühüm ideyalar irəli sürmüş, prinsipial və konkret fikirlər söyləmiş, təkliflər vermiş, siyasi və iqtisadi böhranın səbəbləri, onların aradan qaldırılması yolları barədə qətiyyətli mövqeyini bəyan etmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərərək demişdir: **«Yaranmış vəziyyətin günahkarı hakimiyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, partiya və dövlət hakimiyyətini ələ keçirmiş Qorbaçovdur».**

Xalqının müstəqilliyi uğrunda dönmədən mübarizə aparan Heydər Əliyev Azərbaycan Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında SSRİ rəhbərliyinin müttəfiq respublikaları guya yeni ittifaq yaratmağa çağıran təklifinə qarşı çıxmış, bununla bağlı referendumda iştirak edib-etməmək məsələsində öz qətiyyətli mövqeyini belə ifadə etmişdir: **«Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır».** Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasında referendum boykot edilmiş, rus sovet qoşun hissələri buradan çıxarılmış, 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmiş, Naxçıvan müstəqillik və milli dövlət quruculuğu nümunələri göstərərək, xalqın inamını sarsılmağa qoymamış, müstəqilliyə ümid yaratmışdır.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərdiyi müddətdə bütün Azərbaycan xalqı və Vətən üçün taleyüklü məsələlərdə daim qətiyyətlilik nümayiş etdirmişdir: Kommunist Partiyasının Naxçıvanda fəaliyyət göstərən bütün strukturları ləğv edilmiş (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 26 avqust tarixli qərarı), Azərbaycan Ali Sovetinin 1991-ci il 29 avqust tarixli sessiyasının qərarına əsasən, Azərbaycanda həmin il sentyabrın 8-nə təyin edilmiş prezident seçkilərinin Naxçıvan Muxtar Respublikası ərazisində keçirilməsinin dayandırılması (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 4 sentyabr tarixli qərarı) haqqında qərar çıxarılmışdır. Heydər Əliyevin siyasi təcrübəsi və qətiyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sabitlik təmin olunmuş, demokratik dövlət quruculuğu formalaşmışdır. 1993-cü ilin may-iyununda respublikada hakimiyyət böhranı, hərc-mərclik son həddə çatdıqda, ölkə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi qarşısında qaldıqda, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Bu, əsl mənada, ümummilli hərəkata çevrildi və nəticədə, Azərbaycanın o zamankı dövlət başçıları onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi. Həmin gün Azərbaycan xalqının tarixinə Qurtuluş günü kimi daxil oldu. Heydər Əliyevin başçılıq etdiyi Qurtuluş mübarizəsi zəfər çaldı. Bununla, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin **ikinci dövrü** başlandı. Azərbaycan dövlətçiliyinin məhv edilməsi, vətəndaş müharibəsi və ölkənin

parçalanması təhlükəsi aradan qalxdı. İyunun 24-dən isə Heydər Əliyev Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Oktyabrın 10-da andiçmə mərasimində Heydər Əliyev xalqa müraciət etdi: **«Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm».**

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı, Azərbaycan dövlətçiliyinin varlığı üçün böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, dövlət müstəqilliyi qorunub saxlandı, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə son qoyuldu, ölkədə möhkəm ictimai-siyasi sabitlik bərqərar edildi. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə əsas qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, respublikaçılıq, ədalət, demokratiya, hüquqi dövlət quruculuğu, milli tərəqqi, dünyəvilik və s. ümummilli, ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu. Dövlətin xarici siyasəti, o cümlədən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda, hətta bədxahlarımız tərəfindən də etiraf edilən uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından çox əhəmiyyətli idi. Bu illərdə milli ordu quruculuğunda ciddi dəyişikliklərə başlandı. Təcavüzkar erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks-zərbələr endirildi və 1994-cü ilin mayında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. Bununla, xalqımızın genefondunun məhv edilməsinin qarşısı alındı. Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi. ATƏT-in Lissabon sammitində [1996-cı il] bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın milli mənafelərinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

Heydər Əliyev Azərbaycanın təbii ehtiyatlarından və əlverişli coğrafi-strateji mövqeyindən ölkənin milli mənafelərinə uyğun olan irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində çox gərgin fəaliyyət göstərdi. 1994-cü ilin sentyabrında Bakıda «Əsrin müqaviləsi» adını almış neft müqaviləsi bağlandı. Bundan sonra Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar yeni-yeni sazişlərin imzalanması belə müqavilələrin sayını 21-ə, iştirak edən dövlətlərin və iri şirkətlərin sayının isə müvafiq surətdə 15 və 33-ə çatdırılmasına imkan verdi ki, bu da yaxın illərdə Azərbaycana qoyulacaq xarici sərmayənin 60 milyard dollardan çox olacağını nəzərdə tutur. Bütün bunlar ölkənin iqtisadi sistemini canlandıracaq güclü maliyyə kanalıdır. Bu müqavilələr, eyni zamanda, çox mühüm siyasi məna kəsb edir və Azərbaycanın beynəlxalq aləmdə rolunu gücləndirən amil funksiyası daşıyır. Heydər Əliyevin yeritdiyi müdrik siyasət nəticəsində Azərbaycan neftinin dünya bazarlarına nəqli sahəsində də uğurlu addımlar atılmış, «Bakı-Supsa» boru kəməri tikilib istifadəyə verilmişdir. Heydər Əliyevin müdrik uzaqgörənliyi və siyasi iradəsi sayəsində «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəmərinin inşa olunması haqqında müqavilə imzalanmış və onun həyata keçirilməsi üçün beynəlxalq səviyyədə çox gərgin fəaliyyət göstərilmişdir. Heydər Əliyev yolunun layiqli davamçısı Prezident İlham Əliyevin prinsipial mövqeyi və qətiyyətli fəaliyyəti sayəsində bu böyük layihə hazırda işə düşmüşdür. Heydər Əliyevin təşəbbüsü ilə tarixi Böyük İpək Yolunun bərpasına yönəlmiş beynəlxalq proqramın həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamış, 1998-ci ilin sentyabrında 32 ölkənin və 14 beynəlxalq təşkilatın yüksək səviyyəli nümayəndələrinin Bakıda

konfransı keçirilmiş, konfrans proqramın icraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərar qəbul etmişdir.

Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Moldovanın daxil olduğu GUÖAM birliyinin yaradılmasında və beləliklə, böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin böyük xidməti olmuşdur. 1999-cu ilin aprelində GUÖAM ölkələri başçılarının Vaşinqton görüşündə Heydər Əliyev təşkilatın ilk sədri seçilmişdir.

Heydər Əliyevin çoxşaxəli və geniş-miqyaslı fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi böhranın aradan qaldırılması və tərəqqinin təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, ölkə iqtisadiyyatında ilk artım meyillərinin başlanması, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi və inflyasiyanın qarşısının alınması, manatın alıcılıq qabiliyyətinin davamlı surətdə sabit saxlanması prioritet sahələrdir.

Heydər Əliyev demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sahəsində ardıcıl siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə ümumbəşəri demokratik dəyərləri özündə əks etdirən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi, 1995 və 2000-ci illərdə çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya məhkəməsinin fəaliyyətə başlaması, ölüm cəzasının ləğv olunması, «Bələdiyyə seçkiləri haqqında qanun»un və bir sıra digər qanunların qəbulu və əməli surətdə həyata keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dövləti insan hüquq və azadlıqları sahəsində, demək olar ki, bütün beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

Heydər Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» 1998-ci il 22 fevral tarixli fərmanı Azərbaycan Respublikasının dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratmış, insan hüquq və azadlıqlarının təmin edilməsini dövlət siyasəti səviyyəsinə qaldırmış, 1995-ci ilin mayında əfvetmə təsisatı bərpa edilmiş, 1995-2003-cü illərdə əfv fərmanlarına və amnistiya aktlarına əsasən minlərlə məhbus cəzaçəkmədən tam və ya qismən azad edilmiş, Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün pozulması, işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlardan 1 milyondan artıq soydaşımızın didərgin salınması və çadırlarda qaçqın və köçkün vəziyyətində yaşamağa məcbur olması, Azərbaycan ərazisinin 20%-dən çoxunun Ermənistan silahlı birləşmələrinin işğalı altında qalması və s. haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində çox gərgin və genişmiqyaslı fəaliyyət göstərmişdir. Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi, BMT-nin sessiyalarında, ATƏT-in zirvə toplantılarında çıxışları, Fransa, ABŞ, İngiltərə, Belçika, Almaniya, İran, Türkiyə, Çin, Səudiyyə Ərəbistanı, Misir, Rusiya, Qazaxıstan, Pakistan, Qırğızıstan, Özbəkistan, Yaponiya və b. ölkələrə rəsmi səfərləri də bu məqsədə xidmət etmişdir.

Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normala-rına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı-faydalı əməkdaşlıq prinsipləri təşkil edir. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin də sülh yolu ilə həll olunmasına tərəfdar olduğunu bildirmiş, bu yolda ardıcıl mübarizə aparmış, problemin sülh yolu ilə həlli baş tutmadıqda, Qarabağın silahla azad ediləcəyini əzmlə bəyan etmişdir.

Heydər Əliyev türk dövlətləri arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərmişdir. O, türk dövlətləri başçılarının 1992-ci ildən işə başlamış zirvə toplantılarında müntəzəm olaraq fəal iştirak etmiş, türk xalqlarının birliyi naminə bir sıra dəyərli tədbirlərin həyata keçirilməsinə nail olmuşdur. Türk dövlətləri başçılarının 6-cı zirvə toplantısının [2000-ci il aprel] Bakıda keçirilməsi və bu böyük tədbirin türk dünyasının böyük ədəbi abidəsinin - «Kitabi-Dədə Qorqud» eposunun 1300 illiyinin beynəlxalq miqyasda qeyd edilməsi ilə eyni vaxta düşməsi də bu baxımdan çox əlamətdardır. Heydər Əliyevin

rəhbərliyi ilə hər iki tədbirin çox yüksək səviyyədə keçirilməsi və bütün türk xalqlarının əsl bayramına çevrilməsi Azərbaycan rəhbərini həm də çağdaş türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrətləndirmişdir.

Heydər Əliyevin tarixin acı və amansız sınaq dövrlərində, ermənilərin xüsusi qəddarlıqla həyata keçirdikləri soyqırımları nəticəsində dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş azərbaycanlıların birlik və həmrəyliyinin yaradılması işində müstəsna xidmətləri vardır. Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən onun təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Ali Məclis dekabrın 31-ni Dünya Azərbaycanlılarının Birliyi və Həmrəyliyi Günü elan etmişdir. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi xarici dövlətlərə rəsmi səfərləri zamanı, istisnasız olaraq, hər bir ölkədə yaşayan azərbaycanlıların nümayəndələri ilə çox önəmli görüşlər keçirmiş, Azərbaycan diasporunun formalaşması və təşkilatlanması, onların azərbaycançılıq ideyası altında ana Vətən - Azərbaycan ətrafında sıx birləşməsi üçün misilsiz xidmətlər göstərmişdir. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 2001-ci il noyabrın 9-10-da dünya azərbaycanlılarının Bakıda I qurultayı keçirilmiş, Azərbaycan diasporunun fəaliyyətinin canlandırılması və gücləndirilməsi sahəsində çox mühüm tarixi qərarlar qəbul edilmişdir.

Heydər Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1%-ni toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Heydər Əliyev Azərbaycanın digər bölgələri kimi, blokada şəraitində yaşayan Naxçıvanı da daim diqqət mərkəzində saxlamış, «Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında» 1999-cu il 12 fevral tarixli sərəncamında muxtar respublikanın gələcək inkişaf perspektivlərini müəyyən etmişdir. Tədbirlər planına uyğun olaraq Naxçıvan ensiklopediyası nəşr edilmişdir [2002-ci il]. Burada muxtar respublikanın tarixi, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatından sistemli şəkildə bəhs edilir. Heydər Əliyevin muxtar respublikanın yubiley şənliklərində şəxsən iştirak etməsi Azərbaycanın bu qədim diyarının hərtərəfli inkişaf proqramının həyata keçirilməsinə yeni güclü təkan vermişdir. Heydər Əliyev Ölkə Prezidenti kimi Naxçıvan MR-ə dörd tarixi səfər etmiş [29-31.10.1996; 10-16.10.1999; 15-19.6.2002; 10-15.8.2002-ci il], bu səfərlərin nəticəsi muxtar respublikanın iqtisadi-sosial, elmi və mədəni inkişafına çox böyük müsbət təsir göstərmişdir. Heydər Əliyev 7 avqust 2002-ci il tarixdə AMEA Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi sərəncam imzalamış və həmin Bölmənin yaradılmasına həsr edilmiş müşavirədə çıxış etmişdir.

Heydər Əliyev dahi siyasi və dövlət xadimi olmaqla yanaşı, həm də tarix, fəlsəfə, ədəbiyyat və incəsənətin gözəl bilicisi, elmin və mədəniyyətin himayəçisi idi. Onun bilavasitə təşəbbüsü və iştirakı ilə neçə-neçə ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatları və fəxri adlarla qiymətləndirilmiş, abidələri ucaldılmışdır. Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətləri olan qocaman sənətkarlara, istedadlı gənc şair və yazıçılara, müxtəlif yaradıcılıq sahələrində ümidverici yeniyetmələrə fərdi təqaüdlər təyin etməsi də mədəniyyətimizin inkişafına Heydər Əliyevin böyük qayğısının bariz nümunələrindəndir.

Azərbaycanda latın əlifbasına keçilməsi, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında 2001-ci ildə imzaladığı fərmanlar, milli-mənəvi dəyərlərin qorunub saxlanması çağırışı ilə Azərbaycan xalqına müraciətləri, türk xalqları və dövlətləri arasında əlifba və dil birliyinin təmin edilməsi və bir çox digər sahələrdə coşğun fəaliyyəti Heydər Əliyevə böyük şöhrət gətirmişdir. O, Bakı Dövlət Universitetini **«Azərbaycan xalqının milli sərvəti»,** Naxçıvan Dövlət Universitetini **«Azərbaycanın ən dəyərli ali məktəblərindən biri»,** Elmlər Akademiyasını isə **«Azərbaycan xalqının tarixi nailiyyəti»** adlandırmış və respublikada elmin, təhsilin inkişafına daim diqqət və qayğı göstərmişdir; Heydər Əliyev 2001-ci il 15 may tarixli fərmanı ilə Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası statusu verməklə bu nəhəng elm ocağının Azərbaycan xalqı qarşısındakı xidmətlərini və akademik elmin ölkənin inkişafının əsas təminatçılarından olduğu faktını bir daha yüksək səviyyədə təsdiqləmişdir.

Zəngin, hərtərəfli və dərin tarixi biliyə malik olan Heydər Əliyev doğma tarixin doğru-düzgün araşdırılması, öyrədilməsi və təbliğ olunmasını daim diqqət mərkəzində saxlamış, bu mühüm sahəyə böyük qayğı göstərmiş, metodoloji göstərişləri və apardığı çox dəyərli ümumiləşdirmələrlə tarix elminin inkişafına güclü təkan vermişdir. Onun müxtəlif tarixi hadisələr, proseslər, görkəmli tarixi simalar barədə çıxışları, məruzələri, irəli sürdüyü dövrləşdirmələr, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası [1997-ci il 18 dekabr] və soyqırımı [1998-ci il 26 mart] haqqında fərmanları, «Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik» və «31 Mart - Azərbaycanlıların soyqırımı günü» münasibətilə Azərbaycan xalqına müraciətləri [2000-ci il 29 dekabr və 2001-ci il 27 mart] və s. bunun parlaq nümunələridir. Heydər Əliyev öz əsərlərində, məruzə, çıxış və xalqa müraciətlərində, imzaladığı fərman və sərəncamlarda Azərbaycan xalqının dövlətçilik tarixində parlaq rol oynamış Azərbaycan Xalq Cümhuriyyətinin, cümhuriyyət xadimlərinin fəaliyyətinə obyektiv və yüksək qiymət vermis, müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dönə-dönə qeyd etmişdir. Heydər Əliyevin 1998-ci il 30 yanvar tarixli sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi bütün ölkədə geniş qeyd olunmuşdur. **«Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır»** (Heydər Əliyev).

Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 85-ci ildönümü münasibətilə imzaladığı sərəncamla [2003-cü il 1 fevral] Azərbaycan xalqının dövlətçilik tarixində mühüm yer tutduğunu nəzərə alaraq, Bakı şəhərində Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında göstəriş vermişdir.

1998-ci ilin mayında Azərbaycan xalqı, mütərəqqi beynəlxalq ictimaiyyət Heydər Əliyevin anadan olmasının 75 illiyini yüksək təntənə ilə qeyd etmişdir. Azərbaycanda və bir sıra xarici ölkələrdə Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyi və tərəqqisi naminə titanik fəaliyyətindən bəhs edən silsilə kitablar, kitab-albomlar nəşr olunmuş, kinofilmlər yaradılmışdır.

Heydər Əliyev bir sıra xarici ölkələrin yüksək ordenlərinə, beynəlxalq mükafatlara, o cümlədən Türkiyənin Sənaye və İş Adamları Vakfının 1997-ci ilin insan haqları və ilin dövlət adamı mükafatına, ən nüfuzlu televiziya kanallarından biri -«Nərgiz TV»nin apardığı rəy sorğusuna görə planetimizin siyasi xadimləri arasında «Dünyada ilin adamı» fəxri adına [1997-ci il], «İpək Yolu Fondu»nun təsis etdiyi «İpək Yolu Xidmət Mükafatı»na [1998-ci il], Beynəlxalq Atatürk Sülh Mükafatına [1999-cu il], müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara, mükafatlara layiq görülmüşdür. Dövlətlərarası əlaqələrin inkişafında, regional münasibətlərin, siyasi sabitliyin tənzimlənməsində yorulmaz səylərinə görə Heydər Əliyev «Qızıl fortuna» Beynəlxalq Reytinq Təşkilatının ali mükafatı - «Qızıl Ulduz» («Qloriya populi») ilə təltif olunmuşdur [2001-ci il].

Ümumdünya tarixinin nadir şəxsiyyətlərindən biri olan Heydər Əliyevin əbədiyyətə qovuşduğu gün Azərbaycan xalqının, bütün türk-islam dünyası və mütərəqqi bəşəriyyətin tarixinə ən ağır hüzn günü kimi daxil oldu. Dahi rəhbər əbədiyyət dünyasına arxasınca irəliləyən milyonlarla azərbaycanlını - doğma xalqını birləşdirərək qovuşdu.

Azərbaycan xalqı Heydər Əliyevin adını geniş miqyasda əbədiləşdirmişdir. Anadan olduğu Naxçıvan şəhərində Heydər Əliyevin büstü ucaldılmış [1983-cü il], Heydər Əliyev muzeyi yaradılmışdır. Azərbaycan Respublikasının bütün rayon, şəhər, böyük qəsəbə və kəndlərində Heydər Əliyev bağ və parkları, meydanları salınmış, bulaq-abidə kompleksləri, pannolar inşa edilmiş, şərəfinə abidələr ucaldılmışdır. Heydər Əliyev məktəbləri və universitetlərində elmi-nəzəri mühazirələr, məruzələr dinlənilir, seminarlar keçirilir. Bakının beynəlxalq hava limanı, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Respublika sarayı, Bakı idman-konsert kompleksi və s. Heydər Əliyevin adını daşıyır.

Ulu öndərin nurlu ideyalarının həyata keçirilməsində onun adını daşıyan «Heydər Əliyev Fondu» mühüm rol oynayır. YUNESKO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın prezidenti olduğu bu fondun çoxşaxəli və səmərəli fəaliyyətini xalq böyük razılıqla qarşılayır.

Dünyanın bir çox ölkələrində Heydar Əliyevin şərəfinə abidələr ucaldılmış, parklar, xiyabanlar, küçələr salınmışdır. Kiyevdə Heydər Əliyev adına Siyasi Elmlər və Beynəlxalq Münasibətlər İnstitutu fəaliyyət göstərir.

Heydər Əliyev Bakıda Fəxri Xiyabanda, ömür-gün yoldaşı akademik Zərifə xanım Əliyevanın yanında dəfn olunmuşdur. Onun məzarı qədirbilən Azərbaycan xalqının müqəddəs ziyarətgahına çevrilmişdir.

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusunun şərəfinə «Heydər Əliyev» ordeni təsis edilmişdir [2005-ci il 22 aprel][42].

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
## *1924-cü ildən bizim günlərədək*

Naxçıvan Muxtar Respublikasının tarixi iki dövrə aynlır: **1. Sovet dövrü** [1924-1991-ci illər]; 2. **Müstəqillik dövrü** [1991-ci ildən yaşadığımız günlərədək].

Naxçıvan Muxtar Respublikası yarandıqda onun sahəsi Naxçıvanın tarixi ərazisinin yalnız 5.988 kv.km-ni əhatə edirdi. 1929-1930-cu illərdə və bundan sonra, Kreml rejimi 1921-ci il Moskva və Qars müqavilələrinin qərarlarına zidd olaraq Naxçıvana qarşı ermənilərin yeni ərazi iddialarını həyata keçirdi. Nəticədə Muxtar Respublikanın ərazisi daha da azaldıldı. Hazırda Naxçıvan Muxtar Respublikasının ərazisi 5.365 kv.km-dir[43]. Bu, Azərbaycan Respublikası ərazisinin 6,2%-nə bərabərdir. Azərbaycan xalqının ulu öndəri Heydər Əliyev Azərbaycan Respublikası Konstitusiya Komissiyasının 1998-ci il yanvarın 14-də keçirilən iclasında demişdir: «**Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq»[44].**

Sovet dövründə Naxçıvan MSSR-in əhalisinin say dinamikası aşağıdakı kimi dəyişmişdir (Cədvəl 3-ə baxın).

*Cədvəl 3*

**NAXÇIVAN MSSR ƏHALİSİNİN ÜMUMİTTİFAQ SİYAHIYA ALMALARINA ƏSASƏN SAY DİNAMİKASI**

*(1926—1989-cu illər; min nəfər hesabı ilə)*[45]

| İllər | Azərbaycan SSR üzrə | Naxçıvan MSSR üzrə | | |
|---|---|---|---|---|
| | | Cəmi | Artım | Azərbaycan SSR-ə nisbətən əhalinin %-i |
| 1926 | 2.313,7 | 104,9 | – | 4,53 |
| 1939 | 3.205,2 | 126,7 | 21,8 | 3,95 |
| 1959 | 3.697,7 | 141,4 | 14,7 | 3,82 |
| 1970 | 5.117,1 | 202,2 | 60,8 | 3,95 |
| 1979 | 6.028,3 | 238,8 | 36,6 | 3,96 |
| 1989 | 7.037,9 | 295,1 | 59,3 | 4,19 |


NAXÇIVAN MUXTAR RESPUBLİKASI
CULFA RAYONU
Miqyas 1:250000
Naxçıvan Muxtar Respublikası
Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi
2005
NAXÇIVAN MUXTAR RESPUBLİKASI
CULFA RAYONU
ŞAHBUZ RAYONU
BABƏK RAYONU
ORDUBAD RAYONU
ERMƏNİSTAN
ZƏNGƏZUR
DƏMİRLİDAĞ SİLS.
DARIDAĞ SİLS.
DAĞÜSTÜ SİLS.
QARAYOXUŞ SİLS.
AYDAŞ SİLS.
İRAN
Göynük
Nəhəcir
Milax
Ərəfsə
Teyvaz
Qazançı
Xanəgah
Əlincə
Göydərə
Saltaq
Bənəniyar
Kırna
Qızılca
Ərəzin
Camaldın
Şurud
Dizə
Gülüstan
Culfa
Yaycı
Bərdik d.
Camaldın
Tarixi abidələr
Memarlıq abidələri
Yaşayış yerləri
Qəbir abidələri


NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ORDUBAD RAYONU
Miqyas 1:200000
Naxçıvan Muxtar Respublikası
Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi
2005
NAXÇIVAN MUXTAR RESPUBLİKASI
CULFA RAYONU
ERMƏNİSTAN
İRAN
Nürgüt
Xanağa
Nasirvaz
Bist
Tivi
Ağdara
Parağaçay
Bilav
Behrud
Parağa
Daşbaşı d.
Üstüpü
Cənnəb
Paraqi
Unus
Gilançay
Baş Dizə
Dırnıs
Anaqut
Qoruqlar
Başkənd
Valaver
Düylün
Yuxarı Əylis
Nüsnüs
Qoşadizə
Sabirkənd
Kələntər Dizə
Vənənd
Yuxarı Əndəmic
Gənzə
Culfaya
Aşağı Əylis
Anabad
Aşağı Əndəmic
Dizə
Ağrı
Xanağa
Azadkənd
ORDUBAD
Kotam
Şəhriyar
Dəstə
Kilit
Tarixi abidələr
Memarlıq abidələri
Yaşayış yerləri
Qəbir abidələri

1941—1945-ci illər müharibəsinədək Muxtar Respublika əhalisinin sayı 130 min nəfərdən çox olmuşdur. Müharibə əhalinin artım sürətinə mənfi təsir göstərmişdir. Muxtar Respublika əhalisinin artım sürəti 1939-cu ildəki 21,8 mindən 1959-cu ildə 14,7 minə en-mişdir. Həmin ildə Azərbaycan SSR əhalisi içərisində Naxçıvan MSSR əhalisinin payı da ən aşağı həddə düşmüş - 3,82% olmuşdur. 1970-ci ildə əhalinin sayı 200 minlik həddi keçmişdir. 1989-cu ildə Muxtar Respublika əhalisinin sayı 295,1 min nəfər olmuş, Naxçıvan əhalisi Azərbaycan SSR əhalisinin 4,19%-ni təşkil etmişdir. SSRİ-nin dağılması ərəfəsində Naxçıvan MSSR əhalisi 300 mindən çox olmuşdur. Naxçıvan əhalisinin təxminən üçdə bir hissəsi şəhərlərdə, qalanı isə kənd yerlərində yaşayırdı. Sovet hakimiyyəti illərində Naxçıvan əhalisi olduqca ağır siyasi, sosial-iqtisadi və mədəni problemlərlə qarşılaşmışdır. Bütün bu problemlər təəssüf ki, ən yeni tarix ədəbiyyatında da öz əksini tapmamışdır. Heydər Əliyev demişdir:«... **bizim xalqımız XX əsrdə çox faciələrlə rastlaşıbdır. Bunların içərisində Naxçıvanın başına gələn bəlalar, bəlkə, Azərbaycanın başqa bölgələrindən daha da dəhşətli, faciəli olubdur... Azərbaycan hakimiyyəti tərəfindən Naxçıvana qarşı ədalətsizliklər də olubdur... Naxçıvanın hüquqlarını daim məhdudlaşdırmaq istəyiblər».**

1920-30-cu illər Naxçıvan tarixinin ağır dövrlərindəndir. Həmin illərdə Naxçıvanın idarə edilməsi, ilk vaxtlar, Azərbaycan MİK-in 1924-cü ilin aprelində qəbul etdiyi Əsasnamə ilə tənzimlənirdi. Həmin əsasnamə 1926-cı il aprelin 18-də Ümumnaxçıvan Sovetlər qurultayının qəbul etdiyi Naxçıvan MSSR-in birinci Konstitusiyasınadək qüvvədə olmuşdu. Sonra isə SSRİ və Azərbaycan SSR Konstitusiyalarının dəyişdirilməsi ilə əlaqədar olaraq 1937-ci il sentyabrın 17-də Naxçıvan MSSR-də yeni Konstitusiya qüvvəyə minmişdi.

1920-30-cu illərin repressiyaları Naxçıvanda da çox ağrılı keçmişdir. Bu qanlı faciələrin şahidi olmuş Heydər Əliyev sonralar deyirdi:«... **mən o günlərin şahidiyəm. Mən Naxçıvanda yaşayırdım. Bizim qonşularımızı iki günün içində gətirib ağlaya-ağlaya avtomobillərə doldurdular, çıxarıb Arazın o tayına saldılar. Mən 1937-1938-ci illərdə Naxçıvandan siyasi motivlər üzrə Orta Asiyaya sürgün olunanları da görmüşəm. Onlar orta məktəbdə mənimlə bir yerdə oxuyan qızlar, oğlanlar idi, göz yaşları içində gəlib bizimlə vidalaşırdılar. Biz də başa düşmürdük, gəlib yola salanda görürdük ki, bir günün içərisində onların evlərində-eşiklərində nə vardısa töküb-dağıdıb, onları avtomobillərə doldurub sürürlər».**

Sovet dövründə Naxçıvanın əhalisi kimi ərazisinə qarşı da qəsdlər davam etdirilirdi. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 1929-cu il 18 fevral tarixli qərarı ilə Naxçıvan MSSR-in Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxəç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan kəndi, habelə Kilit kəndi torpaqlarının bir hissəsi, ümumiyyətlə, 657 kv.km torpaqları Ermənistana verilmişdir. Naxçıvana qarşı ərazi qəsdləri 1930-cu ildə də davam etdirildi: Aldərə, Lehvaz, Astazur, Nüvədi və b. Azərbaycan torpaqlan hesabına Ermənistanın Mehri rayonu yaradıldı.

Naxçıvan MSSR 1941-1945-ci illər müharibəsi dövründə faşizm üzərində qələbəyə layiqli töhfələr vermişdir[46]. Naxçıvandan olan ***Nəcəfqulu Rəfiyev (1912-1970), Qəzənfər Əkbərov (1917-1944), Abbas Quliyev (1916-1998)*** Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, minlərlə igid müharibə cəbhələrində faşizmə qarşı şərəflə vuruşmuşdur. Əslən Naxçıvandan olan böyük kimyaçı alim, akademik ***Yusif Məmmədəliyevin*** kəşf etdiyi yüksək oktanlı benzin sovet aviasiyasının faşist ordusu üzərində qələbəsində həlledici rol oynamışdır.


NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ŞAHBUZ RAYONU
Miqyas 1:220000
Naxçıvan Muxtar Respublikası
Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi
2005
45° 30'
ŞAHBUZ
Kükü
Güney Qışlaq
Qızıl Qışlaq
Şada
Badamlı
Türkeş
Salasüz
Daylaqlı
Maralik
Kiçikoba
Şahbuzkənd
Qarababa
Mahmudoba
Nursu
Ayrınc
Kolanı
Aşağı Qışlaq
Yuxarı Qışlaq
Biçənək
Gömür
Ağbulaq
Keçili
Külüs
KÜKÜ SILS.
SÜSƏNDAĞ SILS.
39° 20'
BABƏK RAYONU
CULFA RAYONU
Tarixi abidələr

**MƏMƏDƏLİYEV Yusif Heydər oğlu** (31.12.1905, Ordubad şəhəri -15.12.1961, Bakı; Fəxri Xiyabanda dəfn olımmuşdur) - Azərbaycanın görkəmli kimyaçı alimi. Kimya elmləri doktoru [1942-ci il], professor [1942-ci il], Azərbaycan Milli EA akademiki [1945-ci il] və prezidenti [ 1947-1951-ci və 1958-1961-ci illər], SSRİ EA müxbir üzvü [1958-ci il], SSRİ Dövlət mükafatı laureatı [1946-cı il]. Akademik N.D.Zelinskinin tələbəsi olmuşdur. Azərbaycan Ali Pedaqoji İnstitutunu (indiki APU) bitirmiş [1926-cı il], Gəncə Pedaqoji Texnikumunda və Yerevan Pedaqoji İnstitutunda kimya müəllimi olmuş, iki il Lomonosov ad. MDU-da təhsilini davam etdirdikdən sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda [1932-1933-cü illər] və Azərbaycan Elmi-Tədqiqat Neft Emalı institutunda [1933-1945-ci illər] işləmişdir. Azərbaycan Milli EA yarandıqdan [1945-ci il] sonra Neft İnstitutuna rəhbərlik etmişdir. 1954-1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) rektoru olmuşdur. Məmmədəliyevin əsas elmi işləri neftin və neft qazlarının katalitik emalı sahəsindədir. O, müxtəlif karbohidrogenlərin katalizator iştirakı ilə xlorlaşdırma və bromlaşdırılmasının yeni üsullarını təklif etmiş, neft qazlarını, xüsusilə də metanı əvvəllər stasionar katalizator üzərində, sonralar isə qaynar təbəqədə xlorlaşdırmaqla, karbontetra-xlorid, metilxlorid, metilen-xlorid və s. qiymətli məhsullar alınması yollarını göstərmişdir. Aromatik parafın və sikloparafin karbohidrogenlərini doymamış karbohidrogenlərlə katalitik alkilləşdirmə sahəsindəki tədqiqatı aviasiya yanacaqlarının yüksək keyfiyyətli komponentlərinin sənaye miqyasında sintezinə imkan vermişdir. Y.Məmmədəliyev benzolu propilenlə alkilləşdirilmək yolu ilə izopropilbenzolun sintezi üsulunu işləyib ha-zırlamış, bu da 1941—1945-ci illər



müharibəsi dövründə aviasiyanın yüksək oktanlı yanacaqla təmin olunmasına kömək etmişdir. Məmmədəliyev Bakı neft-lərinin benzin fraksiyasının katalitik aromatikləşdirilməsi, yuyucu maddələr və silisium-üzvi birləşmələr alınması, piroliz məhsullarından plastik kütlə istehsalı və Naftalan neftinin təsir mexanizminin öyrənilməsi sahələrində də mühüm işlər görmüşdür. 200-dən çox elmi əsərin, o cümlədən 6 monoqrafiyanın müəllifidir. Yüksəkixtisaslı elmi kadrlar hazırlanmasında böyük xidməti olmuşdur. O, SSRİ, ABŞ, İtaliya, Fransa, İngiltərə, Polşa, Macarıstan və başqa ölkələrdə keçirilən beynəlxalq elmi məclislərdə dəfələrlə Azərbaycanı təmsil etmişdir. D.İ.Mendeleyev ad. Ümumittifaq Kimyaçılar Cəmiyyəti Azərbaycan İdarəsi Rəyasət Heyətinin [1957—1961-ci illər] və Azərbaycan «Bilik» Cəmiyyəti Rəyasət Heyətinin sədri [1948-1950-ci və 1958-1961-ci illər] olmuşdur. SSRİ Ali Sovetinin (5-ci çağırış) və Azərbaycan SSR Ali Sovetinin (4-cü çağınş) deputatı seçilmişdir. Lenin ordeni, Qırmızı Əmək Bayrağı, «Şərəf nişanı» ordenləri və medallarla təltif edilmişdir. Azərbaycan Milli EA Neft Kimyası Prosesləri İnstitutuna (NKPİ), Ordubad ipək kombinatına və Şamaxı rəsədxanasının yerləşdiyi qəsəbəyə və Bakı küçələrindən birinə onun adı verilmiş, adına mükafat təsis olunmuş, NKPİ-də və Ordubad şəhərində ev-muzeyi açılmış, büstü qoyulmuş, Bakıda yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur. Bakının İstiqlaliyyət küçəsində, Azərbaycan Milli EA Rəyasət Heyəti binasının yanında heykəli ucaldılmışdır. Akademik Y.Məmmədəliyevin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 fevral 2005-ci il tarixdə sərəncam imzalamışdır. Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə YUNESKO-nun Parisdəki mənzil-qərargahında Y.Məmmədəliyevin 100 illik yubileyi təntənə ilə qeyd edilmişdir[47].

İkinci Dünya müharibəsində Azərbaycanın, o cümlədən Naxçıvanın faşizm üzərində qələbəyə göstərdiyi tarixi xidmətlərə baxmayaraq, ölkənin mənəvi-siyasi həyatında ciddi dəyişiklik baş vermədi. Sovet hökuməti Azərbaycana qarşı ədalətsiz siyasətini, ayrı-seçkiliyi davam etdirdi. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən - öz ata-baba torpaqlarından

deportasiyası həyata keçirildi. 1968-1969-cu illərdə ermənilər Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürdü. Lakin Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev ermənilərin bu planlarının reallaşdırılmasına imkan vermədi.

Sovet dövründə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər respublikanın, o cümlədən Naxçıvanın həyatında yüksəliş dövrüdür. 1970—1980-ci illərin əvvəllərində Naxçıvanın sosial-iqtisadi, siyasi və mədəni həyatında böyük dirçəliş baş verdi. Bu dövrdə SSRİ və Azərbaycan SSR Konstitusiyalarına uyğun olaraq, Naxçıvan MSSR-in də yeni Konstitusiyası (1978-ci il) qəbul edildi. Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə ermənilərin Azərbaycandan, o cümlədən Naxçıvan Muxtar Respublikasından yeni ərazilər qoparmaq planları baş tutmadı. Lakin Heydər Əliyev Azərbaycan rəhbərliyindən getdikdən sonra 1985-ci ildə bu bədnam niyyət baş tutdu: digər Azərbaycan əraziləri ilə birlikdə Naxçıvanın da bir qisim torpaqları Ermənistan SSR-ə verildi. 1987-ci ildə Heydər Əliyev SSRİ-nin ali rəhbərliyi sıralarından uzaqlaşdırıldı. Bu addımın siyasi mənasını Azərbaycanın o zamankı rəhbərliyi dərk edə bilmədi. Tarix isə öz işini gördü. Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasından dərhal sonra Dağlıq Qarabağın Azərbaycandan qoparılması uğrunda aqressiv separatçılıq hərəkatı başlandı. Bunun ardınca SSRİ rəhbərliyinin hərtərəfli kömək göstərdiyi Ermənistan Azərbaycana qarşı təcavüzkar müharibəyə başladı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun Bakıda dinc əhaliyə divan tutmasından bir neçə saat əvvəl Naxçıvan erməni təcavüzkarlarının hücumuna məruz qaldı. Azərbaycan ilk şəhidlərini Naxçıvanda verdi. Kərki kəndi ermənilər tərəfindən işğal olundu. Naxçıvanda muxtar respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında müstəsna qərar qəbul edildi. Moskvada isə 1990-cı il 20 yanvar qırğınına ilk düzgün siyasi qiyməti həmin faciənin səhəri günü Heydər Əliyev verdi.

Vətənin dar günündə özünü Bakıya yetirən və Kreml rejiminə yarınan Azərbaycan rəhbərliyinin xəyanəti nəticəsində paytaxtda qala bilməyən Heydər Əliyevin Naxçıvana qayıtması 1990-1993-cü illərdə Naxçıvanı ermənilərin işğal təhlükəsindən xilas etdi. Naxçıvanda fəaliyyət göstərən Heydər Əliyev, eyni zamanda bütün Azərbaycanın ümid çırağı idi. Onun 1991-ci ilin fevralında Ali Sovetin sessiyasında çıxışı, SSRİ-nin saxlanmasına dair referendumun Naxçıvanda keçirilməməsi buna parlaq sübutdur.

1991-ci il sentyabrın 4-də, özünün etirazlarına baxmayaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Heydər Əliyevi özünə sədr seçdi. Naxçıvanda sovet hakimiyyəti ləğv edildi. Azərbaycan Respublikası prezidenti seçkilərini Naxçıvanda keçirməmək haqqında qərar qəbul olundu. Ali Məclisin 5 sentyabr tarixli iclasında Muxtar Respublikanın xalq təsərrüfatında yaranmış gərgin vəziyyət, onu normallaşdırmaq və böhran vəziyyətindən çıxarmaq tədbirləri müzakirə edildi[48]. Siyasi fəallığın konkret iqtisadi şərtlərlə təmin edilməsi Heydər Əliyev dövlətçilik təfəkkürünün parlaq təzahürü idi.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası tarixinin məna və mahiyyətinə görə bir-birindən kəskin surətdə fərqlənən iki dövrü bir-birindən ayrılırdı - sovet dövrü başa çatır, xalqın arzusunda olduğu müstəqillik dövrü başlanırdı. Naxçıvanda yeni Azərbaycanın quruculuğu prosesi gedirdi. Bu tarixi prosesə ulu öndər Heydər Əliyev başçılıq edirdi.


NAXÇIVAN MUXTAR RESPUBLİKASI
KƏNGƏRLİ RAYONU
Miqyas 1:200 000
Naxçıvan Muxtar Respublikası
Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi
2005
NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ERMƏNİSTAN
ŞƏRUR
RAYONU
Çalxanqala
Qabıllı
Qarabağlar
Yurdçu
Qıvraq
Xıncab
Təzəkənd
Xok
Şahtaxtı
Yeni Kərki
Böyükdüz
NAXÇIVAN DÜZÜ
BABƏK
RAYONU
İ
R
A
N
Tarixi abidələr
Memarlıq abidələri
Yaşayış yerləri
Qəbir abidələri


NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ŞƏRUR RAYONU
NAXÇIVAN MUXTAR RESPUBLİKASI
E R M Ə N İ S T A N
SƏDƏRƏK
RAYONU
Şərur
KƏNGƏRLİ
RAYONU
BÖYÜK DÜZ
İ R A N
BABƏK
RAYONU
Tarixi abidələr
Memarlıq abidələri
Yaşayış yerləri
Qəbir abidələri


NAXÇIVAN MUXTAR RESPUBLİKASI
SƏDƏRƏK RAYONU
Miqyas 1:170000
Naxçıvan Muxtar Respublikası
Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi
2005
NAXÇIVAN MUXTAR RESPUBLİKASI
E R M Ə N İ S T A N
Kərki
Heydərabad
Sədərək
Qaraağac
TÜRKİYƏ
DƏHNƏ SILS
ŞƏRUR
RAYONU
İ R A N
Tarixi abidələr
Yaşayış yerləri
Qəbir abidələri

***

Müstəqillik hər bir xalqın ən böyük arzusudur. Azərbaycanın yenidən istiqlaliyyət əldə etməsi xalqın böyük nailiyyəti idi. Hakimiyyət çəkişmələri və siyasi hərc-mərcliyin baş alıb getdiyi Bakıdan fərqli olaraq Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan istiqlal mübarizəsi və yeni həyat quruculuğunun önündə gedirdi. Məhz ilk dəfə Naxçıvanda SSRİ-nin tərkibindən çıxmaq haqqında qərar qəbul edilmiş, SSRİ-nin saxlanılması haqqında referenduma etiraz edilmişdi. Yeni, müstəqil Azərbaycanın qurulması prosesi Naxçıvanda uğurla davam etdirilirdi. Rəsmi Bakı isə Heydər Əliyev dühasından, Naxçıvan təcrübəsindən faydalanmaq əvəzinə, Naxçıvana təzyiq göstərmək, Muxtar Respublikanın hüquqlarını məhdudlaşdırmaq yolunu tutmuşdu. Bu dövrdə Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinin Naxçıvan Ali Məclisinin Sədrinə aid bəndinin çıxarılmasına, ümumiyyətlə, Naxçıvanın muxtariyyətinin ləğv edilməsinə cəhdlər göstərilmişdi. Lakin bütün bu cəhdlər iflasa uğradı. Naxçıvan Muxtar Respublikası tarixin bu mürəkkəb sınaq çağında da Heydər Əliyev müdrikliyi və qətiyyəti sayəsində öz muxtariyyətini qoruyub saxlaya bildi. Və bu, sonralar 1998-ci il Konstitusiyasında təsbit olundu.

Bakıda hakimiyyət çəkişmələri şəraitində siyasi hərc-mərclik və xaosun baş alıb getdiyi halda Naxçıvanda sabit hakimiyyət formalaşmışdı. Blokada şəraitində yaşayan Naxçıvanda sosial-iqtisadi və mədəni həyatın müxtəlif sahələrindəki nailiyyətlər qorunub saxlanılır, müstəqillik şəraitində ona yeni məzmun vermək uğrunda qətiyyətli mübarizə gedirdi. 1991-ci ilin sentyabrından - 1993-cü ilin iyununadək olan dövrdə Naxçıvanda görülən böyük işlər Heydər Əliyevin nitq, çıxış və müsahibələrində, dövri mətbuatda və müxtəlif toplulardakı sənədlərdə əks olunmuşdur. Onların əsas məzmunu Muxtar Respublikanın idarə sisteminin təkmilləşdirilməsi, sosial-iqtisadi islahatlar hazırlanması və həyata keçirilməsi, blokadanın aradan qaldırılması üçün həmsərhəd ölkələr, xüsusilə Türkiyə ilə münasibətlərin yeni səviyyədə qurulması və b. ibarət idi. 1992-ci il mayın 28-də Sədərəkdə Naxçıvanla Türkiyə arasında körpünün açılışı xüsusilə böyük əhəmiyyətə malik idi. Heydər Əliyev bu körpünü «arzu və ümidlərimizin körpüsü» adlandırmışdı.

Naxçıvan Muxtar Respublikası təkcə öz sərhədləri daxilində deyil, bütün Azərbaycan üçün sabitləşdirici amilə çevrilməkdə idi. Bu, Naxçıvanın Azərbaycanın müasir tarixindəki misilsiz xidmətlərindən biri idi. Təsadüfi deyil ki, 1993-cü ilin iyun hadisələri zamanı bütün respublikanın diqqəti Naxçıvana yönəldi və xalqın tələbi ilə Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyev Bakıya gəldi, respublikanın siyasi hakimiyyətində dəyişiklik baş verdi, vətəndaş müharibəsinin, separatçı qüvvələrin fəaliyyətinin qarşısı alındı, sabitlik və əmin-amanlıq yaradıldı, sosial-iqtisadi islahatların hazırlanması və həyata keçirilməsinə başlandı. Heydər Əliyevin başladığı qurtuluş mübarizəsi qələbə çaldı. Azərbaycan Respublikasının rəhbəri kimi Heydər Əliyevin diqqət və qayğısı Naxçıvanın sonrakı inkişafında da həlledici rol oynadı. Azərbaycanın müstəqilliyi dövründə Naxçıvan MR tarixinin ən mühüm siyasi hadisələrindən biri də, onun tarixi və müasir inkişaf sahəsində əldə etdiyi nailiyyətləri təsbit edən yeni Konstitusiyasının qəbulu olmuşdur. Heydər Əliyevin sədrliyilə Azərbaycan Respublikasının yeni Konstitusiyasının layihəsini hazırlayan komissiya tərəfindən başa çatdırılmış və 1995-ci il noyabrın 12-də keçirilən Azərbaycan Respublikası referendumunda qəbul olunmuş Konstitusiyanın VIII fəsli (maddə 134-141) bilavasitə Naxçıvan Muxtar Respublikasına həsr edilmişdir[49]. 1998-ci ilin yanvarında Heydər Əliyevin sədrliyilə Azərbaycan Respublikası Konstitusiya komissiyasının iclasında Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsi müzakirə olunmuşdur[50]. Həmin Konstitusiya layihəsinin hazırlanması, müzakirəsi və qəbul edilməsinə dair sənədlər çox vacib tarixi qaynaqlardır və onların öyrənilməsi Azərbaycanda dövlət quruculuğunun, o cümlədən qanunvericiliyin və qanunvericilik aktlarının yaradılması təcrübəsinin araşdırılması baxımından böyük əhəmiyyətə malikdir.

Heydər Əliyev Konstitusiya komissiyasının yuxarıda qeyd olunan iclasındakı yekun nitqində demişdir: «**Beləliklə, biz həm Azərbaycanın qanunvericiliyi sahəsində çox ciddi addım atırıq, həm də ki, bu məsələləri nizamlayırıq. Yəni müstəqil Azərbaycan dövlətinin, respublikasının tərkibində Naxçıvan Muxtar Respublikası böyük tarixi mərhələlərdən keçərək, nəhayət,**

**özünə uyğun, özünəməxsus bir status, bir yer alacaqdır. Bu, bu gün üçün də, gələcək üçün də lazımdır».**

Heydər Əliyevin respublikaya ikinci rəhbərliyi dövründə Naxçıvanda yeni iqtisadi münasibətlərin təşəkkülü və inkişafı, xalqın həyat səviyyəsinin yüksəldilməsi, sərhədlərin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, mədəni inkişaf sahəsində də böyük uğurlar əldə olundu[51]. Heydər Əliyevin təşəbbüsü ilə görkəmli Azərbaycan şairi ***Hüseyn Cavidin*** qəbri üzərində Naxçıvan memarlıq məktəbi ənənəsinə uyğun olaraq möhtəşəm məqbərə ucaldıldı [1996-cı il].

**Hüseyn Cavid** (təxəllüsü; əsl adı və soyadı Hüseyn Abdulla oğlu Rasizadə; 24.10.1882, Naxçıvan ş. - 5.12.1941, Rusiya, İrkutsk vilayəti) - Azərbaycanın görkəmli şairi və dramaturqu, çağdaş Azərbaycan ədəbiyyatının banilərindən biri. İlk təhsilini Naxçıvanda mollaxanada, sonra isə M.T.Sidqinin «Tərbiyə» adlı yeni üsullu məktəbində almışdır [1894—1998-ci illər]. 1899-1903-cü illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin Talibiyyə mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmiş [1909-cu il], Naxçıvanda, Gəncədə, Tiflisdə, Bakıda müəllimlik etmişdir. H.Cavid Azərbaycan romantizminin banilərindən, çağdaş Azərbaycan ədəbiyyatının yaradıcılarından biridir.



Cavid sənəti bədii növ, janr və forma cəhətdən zəngindir. O, lirik şeirlərin, lirik-epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. «Keçmiş günlər» adlı ilk şeir kitabı 1913-cü ildə çap olunmuşdur. Yaradıcılığının ilk dövrlərində ictimai-siyasi lirikaya daha çox diqqət yetirmişdir. Şeirlərində sosial ədalətsizliyin hökm sürdüyü cəmiyyətdə əməkçi insanların faciəli həyatı təsvir edilir («Öksüz Ənvər», «Çoban türküsü», «Kiçik sərsəri», «Dün və bugün», «Qadın», «Görmədim», «Vərəmli qız», «Məsud və Şəfiqə» və s.). «Sən nəsin, kimsin deyən ariflərə» [1912-ei il] poemasında şair insanlara işıqlı həyat, azad gələcək yolu arayırdı. «Məzlumlar üçün» [1914-cü il], «Qürubə qarşı», «Hərb və fəlakət» [1916-cı il], «Hərb ilahı qarşısında» [1917-ci il] şeirlərində imperialist müharibələrinə nifrət öz əksini tapmışdır.

Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun əsərləri milli teatr mədəniyyətinin inkişafına qüvvətli təsir göstərmiş, «Cavid teatrı» kimi səciyyələndirilmişdir. Mənzum «Ana» [1910-cu il] pyesində nəciblik, sədaqət, mərdlik kimi keyfiyyətlərin yalnız sadə insanlarda olduğu göstərilir. «Maral» [1912-ci il] faciəsində şəxsiyyət və qadın azadlığı məsələsi qaldırılır. Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan «Şeyx Sənan» [1914-cü il] əsərində xalqları bir-birindən ayıran dini və milli təəssübkeşlik əleyhinə üsyankar etiraz ruhu hakimdir. H.Cavid bu dövrdə tədriclə, «Haqq verilmir, alınır» ideyasına gəlib çıxmışdır. Həmin ideya «Şeyda» [1917-ci il] dramında, «Haqqını sən mübarizə ilə ala bilərsən» [1918-ci il] poemasında daha bariz ifadəsini tapmışdır. «Şeyda»da H.Cavid «füqərayi-kasibə»ni, «qabarlı əllər»i istismarçılara qarşı mübarizəyə çağırırdı. Yaradıcılığında mühüm yer tutan «İblis» [1918-ci il] faciəsində dövrün bütün mürtəce qüvvələri - «insan insana qurddur» fəlsəfəsinin tərəfdarları, «iyirminci əsrin mədəni vəhşiləri» olan imperialist dairələri İblis surətində ümumiləşdirilmiş, işğalçı müharibələrə lənət yağdırılmışdır. Mürtəce qüvvələrlə azadlıq, bərabərlik, sülh, beynəlmiləlçilik, maarif və mədəniyyət dostlarının toqquşması Cavidin 1920-ci ilədək yazdığı əsərlərin başlıca konflikti idi. Bu əsərlərin bədii qayəsini bəşəriyyətin fəlakətinə ədalətsiz, istismarçı ictimai quruluşların səbəb olması fikri təşkil edir. Estetik ideyalarına sadiq qalan H.Cavid bununla yanaşı, 1920-1930-cu illərdə dövrün tələbləri ilə səsləşən bir sıra əsərlər yaratmışdır. «Azər» dastanı [1920-1937-ci illər] bu əsərlər arasında xüsusi yer tutur. 1926-cı ildə müalicə üçün Almaniyaya gedən və bir müddət Berlində yaşayan H.Cavid vətənə Qərb dünyasının sosial-mənəvi ziddiyyətlərini əks etdirən bir sıra siyasi-lirik və

lirik-epik şeirlərlə qayıtdı. «Nil yavrusu» əsərində H.Cavid müstəmləkə zülmünü qəzəb və nifrətlə damğalayırdı. 1920-1930-cu illərdə Cavid bir sıra tarixi dramlar yazmışdır. «Peyğəmbər» [1922-ci il], «Topal Teymur» [1925-ci il] əsərlərindən sonra yazdığı «Səyavuş» [1933-cü il], «Xəyyam» [ 1935-ci il] tarixi dramları Cavidin tarixə, tarixi şəxsiyyətlərə baxışında ciddi bir dönüş oldu. H.Cavidin yaradıcılığında türkçülük və turançılıq ideyalarının təbliği öz əksini tapmışdır. Türkçülük ən çox Cavidin «Xəyyam», «Topal Teymur» və «Səyavuş» faciələrində qabarıq verilmişdir. Şair bu əsərlərində istibdada qarşı üsyan edən kütləni, üsyan başçılarını və Xəyyam kimi azadfikirli bir mütəfəkkiri baş qəhrəman seçmişdir. Faşizm və İkinci Dünya müharibəsi təhlükəsinin artması 1930-cu illərin əvvəllərində Cavidi narahat edən problemlər idi [«İblisin intiqamı» dramı, 1936-cı il]. Cənubi Azərbaycandakı azərbaycanlıların «şahənşahlıq» üsuli-idarəsinin əsarəti altında əzab çəkməsi, ən adi insan hüquqlarından məhrum edilməsi də vətənpərvər şair kimi Cavidi düşündürürdü («Telli saz» dramı, 1930-cu il; «Kor neyzən» poeması, 1930-cu il). Cavidin fəlsəfi, siyasi-ictimai görüşləri «ümumi məhəbbət» ideyasından yüksək humanizmə qədər böyük bir inkişaf yolu keçmişdir. Poeziyası yüksək bədii sənətkarlığı, dərin emosionallığı, səmimiyyəti ilə seçilir.

Anadan olmasının 100 və 110 illik yubileyləri geniş qeyd olunmuşdur. Nax-çıvanda və Bakıda ev-muzeyləri yaradılmış, Bakıda vaxtilə yaşadığı binaya (indiki Azərbaycan Milli EA Əlyazmalar İnstitutunun binası) barelyef-təsviri olan xatirə lövhəsi vurulmuşdur. 100 illik yubileyi ərəfəsində cənazəsi İrkutsk vilayətindən Naxçıvana gətirilib, buradakı ev-muzeyinin yaxınlığında dəfn edilmişdir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə şairin qəbri üzərində möhtəşəm məqbərə tikilmişdir [1996-cı il].

1982-ci ildə Naxçıvanda «Hüseyn Cavid poeziya teatrı» açılmışdır. Adına Bakıda, Naxçıvanda və ölkənin digər şəhər və rayonlarında küçə, bağ, məktəb, kitabxana, kinoteatr və s. mədəni maarif müəssisələri var. Bakıda əzəmətli abidəsi ucaldılmışdır[52].

Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı, müasir dünyanın görkəmli dövlət xadimi İlham Əliyevin 2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkənin həyatında böyük tarixi hadisə oldu. 1993-cü ilin iyununda olduğu kimi Azərbaycan xalqı yenə öz sözünü dedi: xalq öz taleyini və doğma Vətənin müqəddəratını Heydər Əliyevin ən yaxın silahdaşı ***İlham Əliyevə*** etibar etdi.

**ƏLİYEV İlham Heydər oğlu** (d.24.12.1961, Bakı) - Azərbaycan Respublikasimn Prezidenti [2003-cü ildən], müasir dünyanın görkəmli siyasi və dövlət xadimlərindən biri. Yeni Azərbaycan Partiyasının sədri [2005-ci il]. Azərbaycan xalqının ümummilli lideri, dahi dövlət xadimi Heydər Əliyevin oğludur. Peşəkar siyasətçidir. 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmiş, orada elmi-pedaqoji fəaliyyətə başlamış [1982-ci il], aspirant, müəllim olmuşdur. Tarix elmləri namizədi [1985-ci il], siyasi elmlər doktorudur. 1991-ci ildən Moskvada «Oriyent» şirkətinin baş direktoru işləmiş, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti [1994-cü ildən] və birinci vitse-prezidenti [1997-ci ildən], Azərbaycan Respublikasının baş naziri [2003-cü il] vəzifələrində çalışmışdır. Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması və yeni Azərbaycanın qurulmasında Heydər Əliyevin ən yaxın silahdaşı olmuşdur.

İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Onun ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin daha da genişlənməsində, xüsusilə neft-qaz yataqlarının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilənin bağlanması və reallaşdırılmasında, ümumiyyətlə, Azərbaycan Respublikasının

dünyaya inteqrasiyasında böyük xidmətləri vardır. İlham Əliyevin böyük əməyi olan neft strategiyasının həyata keçirilməsi, beynəlxalq şirkətlərlə neft müqavilələrinin imzalanması nəticəsində 1994— 2000-ci illərdə xarici şirkətlər Azərbaycana 800 milyon ABŞ dolları məbləğində bonus vermişlər. Azərbaycanın neft sektorunda 30 mindən artıq iş yeri açılmışdır.

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev, həm də görkəmli partiya xadimidir. O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının (YAP) lideridir. İlham Əliyev YAP-ın I qurultayında [1999-cu il] partiya sədrinin müavini, II qurultayında [2001-ci il] isə birinci müavini seçilmişdir. Bu mühüm vəzifənin öhdəsindən layiqincə gələn İlham Əliyev əhalinin geniş kütlələrinin Yeni Azərbaycanın quruculuğuna səfərbər olunmasında olduqca səmərəli fəaliyyət göstərir. 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasına İlham Əliyev başçılıq etmişdir. Məhz onun rəhbərliyi ilə YAP həmin seçkilərdə parlaq qələbə çalmış və Milli Məclisdə böyük əksəriyyəti qazanmışdır.

İlham Əliyev Milli Məclisin deputatı olduğu dövrdə geniş və çoxşaxəli fəaliyyət göstərmişdir. O, daim xalqın içərisində olmuş, onun problemlərini öyrənmiş, əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqələrinə müntəzəm qayğı göstərmişdir. Həmin dövrdə İlham Əliyevin əhalinin müxtəlif təbəqələrinin nümayəndələrinə, qaçqınlara, məcburi köçkünlərə və Qarabağ müharibəsi əlillərinə qayğısı, Qaradağ rayonunda və ölkənin digər bölgələrində apardığı böyük quruculuq işləri doğma xalqa göstərilən bu qayğının parlaq təzahürləridir. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü olmuş İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasında (AŞ PA) Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti doğma xalqa qətiyyətlə və cəsarətlə xidmət etmək nümunəsidir. Onun AŞ PA-dakı məqsədyönlü, qətiyyətli və cəsarətli çıxışları Azərbaycanın Avropa məkanında nüfuzunun daha da artmasına çox güclü təsir göstərmişdir. Məhz İlham Əliyevin yorulmaz fəaliyyəti, qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları Avropa Şurasında ifşa olunmuş, Azərbaycanın ayrılmaz parçası olan Dağlıq Qarabağ haqqında, qondarma «Dağlıq Qarabağ problemi» barədə Qərb dünyasında obyektiv rəy formalaşmış, həmin münaqişəyə düzgün siyasi qiymət verilmiş, onun həlli yolunda mühüm addımlar atılmışdır. Avropa Şurasında Ermənistanın təcavüzkar, işğalçı dövlət kimi tanınmasında, erməni terrorçuluğunun beynəlxalq terrorizmin tərkib hissəsi olmasının sübuta yetirilməsində, nəzarətdən kənarda qalan Dağlıq Qarabağın narkotiklərin ötürücü məntəqəsinə və terror yuvasına çevrilməsinin Avropa və dünya ictimaiyyətinə çatdırılmasında İlham Əliyevin böyük xidmətləri var. Avropa Şurasındakı fəaliyyəti, AŞ PA-dakı obyektiv və konstruktiv çıxışları İlham Əliyevə qərb siyasətçiləri arasında böyük hörmət və nüfuz qazandırmışdır. O, AŞ PA-nın vitse-spikeri və Büro üzvü seçilmişdir [2003-cü il yanvar].

İlham Əliyev Prezident Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir və bu sahədə fəaliyyətini indi də uğurla davam etdirir. 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti təyin olunan İlham Əliyev az vaxt içərisində həmin sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu göstərmişdir. Onun yorulmaz və gərgin əməyi sayəsində qısa müddət ərzində Azərbaycan idmanı ayağa qaldırılmış, dünya şöhrəti qazanmışdır. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandığı parlaq uğurlar İlham Əliyevin başçılıq etdiyi idman hərəkatının, hər şeydən əvvəl, böyük siyasi qələbəsidir.

İlham Əliyev uzaqgörən dövlət xadimi və siyasətçi kimi sağlam gənclik yetişdirmək, bununla da xalqımızın sağlam gələcəyini təmin etmək üçün idmanı ümumxalq hərəkatına çevirmək xətti yeridir. Onun təşəbbüsü ilə təkcə paytaxt Bakıda deyil, eyni zamanda regionlarda (Naxçıvan, Gəncə, Şəki, Lənkəran, Quba, Şamaxı) da olimpiya idman-sağlamlıq komplekslərinin tikilib istifadəyə verilməsi, idmanın müxtəlif sahələrinin inkişafı üçün güclü maddi-texniki baza yaradılması xalqın sağlam gələcəyinə yönəlmiş müdrik siyasətin parlaq təzahürləridir.

Hazırda Azərbaycanın beynəlxalq yarışlarda idmanın müxtəlif sahələrində ön mövqelərə çıxması, Bakının dünya üzrə mühüm beynəlxalq yarışların keçirildiyi mərkəzə çevrilməsi Azərbaycanın şöhrətini daha da artırır, onun beynəlxalq nüfuzuna müsbət təsir göstərir. Bu, İlham Əliyevin gənclər siyasətinin ən böyük uğurlarından biridir.

İlham Əliyev beynəlxalq münasibətlər tarixi sahəsində dərin biliyə malik olan peşəkar siyasətçi kimi dünya miqyasında böyük hörmət və nüfuz qazanmışdır. O, Azərbaycan nümayəndə heyətinin başçısı, yaxud üzvü kimi ABŞ, İngiltərə, Türkiyə, Fransa, Rısiya, Yaponiya, Ukrayna, Belarus, İsveçrə, Qazaxıstan, Özbəkistan, Slovakiya, Polşa, Pakistan, Xorvatiya, İran, ərəb ölkələri, Gürcüstan və b. ölkələrdə rəsmi səfərlərdə, o cümlədən dövlət səfərlərində olmuş, bir çox beynəlxalq konfrans və konqreslərdə məruzələrlə çıxış etmişdir.

İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı olmuş, AŞ PA-da Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı və AŞ PA-nın vitse-spikeri və Büro üzvü vəzifələrində səmərəli fəaliyyət göstərmişdir. Azərbaycan xalqı qarşısındakı xidmətləri nəzərə alınaraq İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdur. O, 2003-cü ilin Prezident seçkilərində parlaq qələbə qazanaraq xalqın iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. İlham Əliyev, eyni zamanda iqtidar partiyası olan Yeni Azərbaycan Partiyasına başçılıq edir.

Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Onun rəhbərliyi ilə ölkədə iqtisadi islahatlar daha da sürətlənmiş, xüsusi prezident fərmanı ilə 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramı qəbul olunmuşdur. Ölkə Prezidenti «Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında» 2004-cü il 9 fevral tarixli sərəncam imzalamışdır. Sərəncamda Naxçıvan Muxtar Respublikasına muxtariyyət statusunun verilməsi yüksək qiymətləndirilmişdir. İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfərlər etmiş [12-14.05.2004-cü il; 02.09.2004-cü il; 20-21.12.2006-cı il], Muxtar Respublikanın yubiley şənliklərində iştirak etmişdir. İlham Əliyevin muxtar respublikaya səfəri bu qədim diyarın hərtərəfli inkişafına yeni güclü təkan vermişdir. Prezident İlham Əliyev ölkədə insan haqları və azadlıqlarının daha dolğun təmin olunmasını diqqət mərkəzində saxlayır. O, Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir. Onun «Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında» və «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» sərəncamları [2004-cü il 12 yanvar], Milli Ensiklopediyanın nəşrinə rəhbərliyi şəxsən öz üzərinə götürməsi və bununla bağlı imzaladığı sərəncamlar, alimlərə elmi dərəcələrə görə verilən əlavə əmək haqqını, tələbələr, magistrlər və aspirantların təqaüdlərini dəfələrlə artırması milli-mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürləridir. İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. O, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna yüksək qiymət vermişdir: «Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tariximizdə çox əlamətdar və önəmli hadisə idi. İlk dəfə müsəlman aləmində demokratik respublika yaranırdı, Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Ölkəmiz dünya birliyinə üzv olurdu. Bu, çox əlamətdar hadisə idi».

İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 60 illiyi münasibəti ilə imzaladığı

fərmanlar, alimlər qarşısındakı dərin məzmunlu çıxışı onun elmin inkişafına göstərdiyi böyük qayğının parlaq təzahürüdür.

Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan İlham Əliyev müasir və çevik siyasətçi kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. O, sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir, İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır. Ölkə başçısının yeritdiyi uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan Respublikası Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir. Prezident İlham Əliyevin ümummilli lider Heydər Əliyevin siyasi kursunu qətiyyətlə davam etdirməsi sayəsində Bakı-Tbilisi-Ceyhan əsas neft ixracı kəmərinin istifadəyə verilməsi Azərbaycan Respublikasının beynəlxalq aləmdəki mövqelərini daha da möhkəmləndirmişdir. Azərbaycan Respublikası iqtisadi cəhətdən dünyanın ən sürətlə inkişaf edən ölkəsinə çevrilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri adları və mükafatlarına layiq görülmüş, AŞ PA-nın fəxri üzvü diplomu və medalı ilə təltif olunmuşdur. Bu yaxınlarda İlham Əliyevə Türkiyənin nüfuzlu «Ekovitrin» media qrupu tərəfindən «Avrasiyada ilin siyasət adamı» mükafatı təqdim edilmişdir.

İlham Əliyev Azərbaycan Respublikasının ən ali mükafatı, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusunun şərəfinə təsis edilmiş «Heydər Əliyev» ordeninə layiq görülmüşdür[53].

Ulu öndər Heydər Əliyevin zamanında olduğu kimi Prezident İlham Əliyev də bütün ölkənin, o cümlədən Naxçıvan MR-in hərtərəfli inkişaf etdirilməsini daim diqqət mərkəzində saxlayır. İlham Əliyevin daxili siyasətinin ən mükəmməl sənədlərindən olan Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramında (2004-2008-ci illər) Naxçıvana mühüm yer ayrılmışdır.

